QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 097 (5817) **30 may** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**


# "Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır"

*Prezident İlham Əliyev XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının açılışında iştirak edib*




Səh 2


"Azərbaycan və ABŞ arasında güclü tərəfdaşlıq əlaqələri mövcuddur"



5

"Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlıq həyata keçirilir"



5

"Çelsi" Bakıda Avropa Liqasının qalibi oldu!



6

Birinci vitse-prezident Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri ilə görüşüb



6

Hikmət Hacıyev İtaliya mətbuatına: Futbol siyasiləşdirilməməlidir



10

Mərkəzi Seçki Komissiyası 2019-cu il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinə yekun vurub



10

8

Əcnəbi azarkeşlər: "Azərbaycanda təhlükəsizlik yüksək səviyyədədir"



13

Andrey Kançelskis: "Mxitaryan belə qorxdusa, qoy özünə pampers alsın"



16

"Çelsi"nin azarkeşi: Ən çox İçərişəhəri xatırlayacağam



# "Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır"

*Prezident İlham Əliyev XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının açılışında iştirak edib*













***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak edib.***

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın "ITE Group Plc" şirkətinin baş məsləhətçisi Endryu Vud sərgi-konfransın 26-cı ildönümünü nailiyyətlərlə qeyd etdiyini, Azərbaycana hər gəlişində burada müsbət dəyişikliklərlə qarşılaşdığını bildirib, sərginin işinə uğurlar arzulayıb. Sonra dövlətimizin başçısı açılış mərasimində nitq söyləyib.

Prezident İlham Əliyev öz nitqində qeyd edib ki, bu sərgi 26-cı dəfədir keçirilir və sərgiyə maraq azalmır. Çünki bu il sərgidə 30-dan çox ölkədən 300-ə yaxın şirkət iştirak edir və bu, çox gözəl göstəricidir. İyirmi altı il ərzində sərgi dünyanın neft şirkətlərinin diqqətini cəlb edir. Bu, onu göstərir ki, Azərbaycanın neft-qaz resursları bu gün və gələcəkdə xarici şirkətlər üçün böyük maraq kəsb edəcək:

"Mən birinci sərgini xüsusilə qeyd etmək istərdim. 1994-cü ildə keçirilmiş birinci sərgi Azərbaycanı dünyaya təqdim etdi, Azərbaycanın zəngin neft-qaz resursları haqqında dünyaya məlumat verdi. Çünki o vaxt Azərbaycan haqqında məlumat çox məhdud idi, bizim ölkəmiz gənc müstəqil dövlət idi, müstəqilliyinin ilk illərini yaşayırdı. Əlbəttə, dünyada, xüsusilə neft-qaz aləmində Azərbaycanın potensialı haqqında məlumat demək olar ki, yox idi. Sərginin keçirilməsi, Azərbaycana diqqətin cəlb edilməsi gələcəkdə Azərbaycanın neft-qaz sektorunun inkişafı üçün çox önəmli rol oynadı. Mən bunu nəzərə alaraq sərginin iştirakçılarına bir daha minnətdarlığımı bildirmək istəyirəm. Çünki onların bu qərarı, Bakıda bu sərginin keçirilməsi və ondan sonra uzun illər ərzində bizimlə əməkdaşlıq etmələri, əlbəttə ki, təqdirəlayiq bir haldır.

1994-cü ildə ilk sərgi keçiriləndə ölkəmizdə vəziyyət tam fərqli idi. Azərbaycan çox ağır iqtisadi vəziyyətdə idi, siyasi müstəvidə sabitlik təzə-təzə bərpa edilmişdi. Çünki müstəqilliyimizin ilk illəri ölkəmiz, xalqımız üçün çox ağır keçmişdir. Vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, iqtisadi, siyasi böhran demək olar ki, ölkəmizin inkişafına böyük zərbə vurmuşdu, ölkəmizin inkişafı ilə bağlı aydın təsəvvür yox idi. Əlbəttə, zəngin neft-qaz resurslarına malik olan ölkə üçün yeganə çıxış yolu sabitliyin bərpası və neft resurslarından səmərəli istifadə edilməsi idi ki, sərmayə qoyuluşu gəlsin və ölkəmizin iqtisadi potensialı artsın. 1994-cü ildə sərgidən yaranan mənfəət, o cümlədən siyasi mənfəət bu gün də bizə imkan verir ki, həm neft-qaz sektorumuzu, eyni zamanda, ümumiyyətlə ölkəmizi inkişaf etdirək.

Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır. Çünki məhz o, Azərbaycan rəhbərliyinə gələndən sonra ölkəmizdə vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna qədəm qoydu və xarici investorlar bizə inandı. Çünki o vaxt bu inam əsas şərt idi. Bu inam olmasaydı, Azərbaycana heç kim böyük sərmayə qoymazdı. Çünki Azərbaycan o vaxt çox riskli bir ölkə kimi tanınırdı və investorları buraya cəlb etmək üçün böyük səylər göstərilmişdir. 1994-cü ilin sentyabr ayında "Azəri-Çıraq-Günəşli" neft yataqları üzrə imzalanmış kontrakt demək olar ki, bizim inkişafımıza çox böyük təkan verdi. Təsadüfi deyil ki, bu kontraktın miqyasına və əhəmiyyətinə görə ona "Ərsin kontraktı" adı verilmişdir. "Əsrin kontraktı"nın imzalanmasından sonra Azərbaycana böyük həcmdə sərmayə qoyuluşu başlamışdır və eyni zamanda, ondan sonra digər kontraktlar da imzalandı. "Əsrin kontraktı"nın çox böyük əhəmiyyəti var. Bu gün də bu əhəmiyyət kifayət qədər böyükdür. İki il bundan əvvəl kontraktın müddəti uzadıldı, 2050-ci ilə qədər bu kontrakt qüvvədə olacaq. Yəni, bu, o deməkdir ki, Azərbaycanın neft-qaz resursları, eləcə də "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılacaq neft-qaz bundan sonra da uzun illər ərzində Azərbaycan xalqına, dövlətinə xidmət göstərəcək.

**Ardı Səh. 3**

# "Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır"

*Prezident İlham Əliyev XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının açılışında iştirak edib*












Əvvəli-Səh-2

Onu da bildirməliyəm ki, sərginin "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış Sazişə də çox böyük dəstəyi olmuşdur. Çünki o Saziş məhz 1996-cı ildə keçirilmiş sərgi zamanı imzalanmışdır. O vaxt "Şahdəniz" yatağına xarici investorları cəlb etmək o qədər də asan məsələ deyildi. Çünki xarici şirkətlərin əsas hissəsi neft yataqlarına daha böyük maraq göstərirdi. Çünki mənfəət baxımından əlbəttə ki, bu, daha cəlbedicidir. Qaz yataqlarına isə maraq o qədər də böyük deyildi. O vaxt bütövlükdə qaz amili enerji təhlükəsizliyi baxımından o qədər də böyük əhəmiyyət kəsb etmirdi. Buna görə "Şahdəniz" yatağı üzrə imzalanmış kontraktın da ölkəmiz üçün çox böyük faydası oldu və bu gün biz bunun xeyrini görürük. Çünki bu gün "Şahdəniz"dən çıxarılan qaz həm daxili bazara göndərilir, eyni zamanda, bizim ixrac potensialımızı artırır. "Şahdəniz" bu gün Cənub Qaz Dəhlizinin resurs bazasıdır. Məhz "Şahdəniz" yatağının mövcudluğuna, yatağın işlənilməsinə görə bu gün nəhəng Cənub Qaz Dəhlizi layihəsi icra edilir.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları üzrə imzalanmış kontraktlar tarixi əhəmiyyət daşıyır. Ondan sonra da kontraktlar imzalanmışdır. Onların bəzilərinə xitam verildi. Çünki biz beynəlxalq təcrübədə də kifayət qədər tez-tez bu vəziyyətlə rastlaşırıq ki, qazma işləri aparılır, amma kifayət qədər mənbə aşkar olunmur. Amma yenə də deyirəm, "Şahdəniz" və "Azəri-Çıraq-Günəşli" bizim neft-qaz sektorumuzun əsas hissəsini təşkil edir.

Əlbəttə ki, növbəti mərhələdə neft-qaz kəmərlərinin tikintisi məsələsi gündəliyə çıxmışdır və bu məsələ də uğurla həll olundu. Hesab edirəm ki, bu da tarixi layihədir. 2006-2007-ci illərdə nəhəng neft-qaz kəmərlərinin istifadəyə verilməsindən sonra Azərbaycanın böyük ixrac imkanları olmuşdur və Xəzər dənizindən çıxarılan neft-qaz həm daxili bazara, həm də ki, xarici bazarlara göndərilməyə başlanılmışdır.

"Əsrin kontraktı"nın əhəmiyyəti, eyni zamanda, onda idi ki, ilk dəfə olaraq Xəzər dənizinə xarici neft şirkətləri dəvət olundu və onlar Xəzər dənizinin zəngin neft-qaz yataqlarının işlənilməsi ilə məşğul olmağa başladılar. İxrac neft-qaz kəmərlərinin tikintisindən sonra əlbəttə ki, Azərbaycan yeni mərhələyə qədəm qoydu və digər yataqlar üzrə danışıqlar aparılmağa başlanmışdır. Onların bir neçəsi artıq qüvvədədir və hesab edirəm ki, yaxın illərdə biz yeni yataqlardan enerji resurslarımızı hasil edəcəyik.

Cənub Qaz Dəhlizinin reallaşması tarixi hadisədir. Bu, nəhəng infrastruktur layihəsi həm ölkəmiz, həm də digər ölkələr üçün böyük əhəmiyyət daşıyır. Cənub Qaz Dəhlizinin reallaşması üçün bir çox önəmli addımlar atılmışdır və əlbəttə ki, burada beynəlxalq əməkdaşlıq xüsusi yer tutur. Çünki əgər genişmiqyaslı beynəlxalq əməkdaşlıq olmasaydı, bu nəhəng layihəni icra etmək mümkün olmazdı. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında imzalanmış TANAP layihəsi Cənub Qaz Dəhlizinin önəmli hissəsidir. Keçən il - düz bir il bundan əvvəl mayın 29-da Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılışı olmuşdur. Beləliklə, bu böyük layihənin icrası istiqamətində çox önəmli addımlar atılmışdır. Bildiyiniz kimi, Cənub Qaz Dəhlizi dörd hissədən ibarətdir. Onlardan üçü artıq reallaşıb, dördüncü layihə də uğurla icra edilir. Keçən il TANAP-ın istifadəyə verilməsindən sonra Azərbaycan öz qaz resurslarını xarici bazarlara daha böyük həcmdə ixrac etməyə başlamışdır. Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşması üçün çox önəmli şərait yaradılmış və addımlar atılmışdır.

Azərbaycan bir çox xarici enerji şirkətləri ilə uğurlu əməkdaşlıq aparır və bu əməkdaşlığın böyük tarixçəsi var. Hər bir şirkətlə əməkdaşlıq aparmaq bizim üçün çox önəmlidir, ancaq mən xüsusilə BP şirkətini qeyd etmək istərdim. Çünki BP şirkəti bizim strateji tərəfdaşımızdır, strateji investordur. Biz 25 ildir ki, əməkdaşlıq edirik. Bu əməkdaşlıq həm ölkəmiz, həm də şirkət üçün çox uğurludur. Hesab edirəm ki, bu əməkdaşlıq nümunəvi xarakter daşıyır və bu əməkdaşlığın gözəl gələcəyi var. Çünki qeyd etdiyim kimi, təkcə "Azəri-Çıraq-Günəşli" yatağı üzrə işlər ən azı 2050-ci ilə qədər aparılacaqdır. "Şahdəniz" qaz-kondensat yatağının işlənilməsi də bundan sonra onilliklər ərzində aparılacaqdır. Beləliklə, bizim strateji tərəfdaşlığımızın çox gözəl perspektivləri vardır.

*Ardı Səh. 4*

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 may 2019-cu il

# "Müasir neft siyasətimiz Heydər Əliyevin adı ilə bağlıdır"

*Prezident İlham Əliyev XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının açılışında iştirak edib*




Əvvəli-Səh-3

Biz bu layihələri əlbəttə ki, o cümlədən xarici maliyyə resurslarının hesabına icra etdik. Həm öz vəsaitimizi qoyduq, eyni zamanda, beynəlxalq maliyyə qurumlarından kredit şəklində vəsait aldıq. Bu münasibətlə bu qurumların Azərbaycana dəstəyi haqqında danışmaq istərdim. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı - dünyanın bu aparıcı maliyyə qurumları Cənub Qaz Dəhlizinin reallaşmasına öz maliyyə vəsaitini ayırıb və beləliklə, layihənin icrası üçün çox önəmli dəstək vermiş olublar. Eyni zamanda, bu kreditlərin ayrılması Azərbaycanın uğurlu gələcəyinə inamın təzahürüdür.

Biz bu layihənin həyata keçirilməsi üçün Avropa İttifaqı ilə əməkdaşlıq aparırıq. 2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi ilə əlaqədar Birgə Bəyannamə qəbul edilmişdir. Bizim təşəbbüsümüzlə hər il Bakıda Cənub Qaz Dəhlizinin Məşvərət Şurası keçirilir. Bu ilin fevral ayında 5-ci toplantı keçirilmişdir. Bu toplantılarda həm görülmüş işlərə yekun vurulur, eyni zamanda, ən önəmlisi odur ki, görüləcək işlər haqqında danışılır. Əlbəttə, biz əminik ki, bu nəhəng layihənin uğurla icra edilməsinə nail olacağıq. Çünki bu gün həm beynəlxalq əməkdaşlıq baxımından, həm də maliyyə resursları baxımından bu layihənin reallaşması üçün heç bir problem qalmır.

Mən bir qədər əvvəl beynəlxalq əməkdaşlıq haqqında fikirlərimi bildirdim. Bir daha demək istəyirəm, çünki belə nəhəng layihələri biz ancaq beynəlxalq əməkdaşlıq çərçivəsində həll edə bilərik. Çünki əgər o olmasa, o layihələri icra etmək mümkün olmaz. Neft-qaz kəmərləri, investisiya qoyuluşu, beynəlxalq maliyyə qurumlarının iştirakı və əlbəttə ki, birgə səylərimiz nəticəsində biz buna nail ola bilmişik. Hesab edirəm ki, Azərbaycan bu məsələ ilə bağlı istədiyinə tam nail ola bildi.



Sirr deyil ki, bu gün enerji təhlükəsizliyi məsələləri böyük əhəmiyyət daşıyır. Enerji təhlükəsizliyi məsələləri ölkələrin milli təhlükəsizliyi məsələləridir. Bu baxımdan Azərbaycan tərəfindən reallaşan və bizim təşəbbüsümüzlə həyata keçirilən layihələr həm ölkəmizin, həm də bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir. Bu gün Azərbaycan nefti və qazı dünya bazarlarına müxtəlif yollarla ixrac edilir. Enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi məsələləri bu gün çox böyük əhəmiyyət daşıyan məsələlərdir. Ölkəmizin bu sahədəki rolu qiymətləndirilir. Azərbaycan bu məsələlərlə bağlı ardıcıl və uğurlu siyasət aparır."

ABŞ dövlət departamentinin enerji ehtiyatları bürosunda dövlət katibi köməkçisinin birinci müavini Kent Loqsdon Azərbaycanın qlobal enerji bazarına, Cənub Qaz Dəhlizi layihəsinin isə enerji təhlükəsizliyinə töhfə verdiyini vurğuladı. Bu layihənin reallaşmasına verdiyi dəstəyə görə Prezident İlham Əliyevə və digər tərəfdaşlara təşəkkür etdi. Kent Loqsdon daha sonra ABŞ Prezidenti Donald Trampın məktubunu tədbir iştirakçılarına çatdırdı.

Böyük Britaniyanın beynəlxalq ticarət üzrə dövlət katibi Liam Foks videomüraciətində bildirdi ki, Azərbaycan enerji müstəqilliyini təmin etmiş ölkədir. Azərbaycan ilə Böyük Britaniya arasında dərinləşən əməkdaşlıq ölkələrimizə daha çox iqtisadi faydalar verməkdədir. Azərbaycan həm də Avropanın enerji təhlükəsizliyinə böyük töhfə verir.

Sonra Prezident İlham Əliyev sərgi ilə tanış olub. Tanınmış beynəlxalq platforma kimi nüfuz qazanan və bölgəmizin neft-qaz sənayesinin mühüm tədbiri olan bu sərgi hər il Xəzər regionunun əsas neft-qaz layihələrini müzakirə etmək üçün mühüm platforma hesab edilir. Sərgidə iştirak edən şirkətlər neft hasilatı və enerji resurslarının daşınması, neft-qaz saxlama sistemlərinin təmin edilməsi üzrə avadanlıq, xidmət və innovativ texnologiyaların geniş çeşidini, platforma və üzən qazma qurğularını, boruların çəkilməsi və boru kəmərlərinin təhlükəsizlik sistemlərinin təmin edilməsi, eləcə də servis xidmətlərini təqdim edir. Sonda dövlətimizin başçısı sərgi və konfransın xatirə kitabını imzaladı.

# “Azərbaycan və ABŞ arasında güclü tərəfdaşlıq əlaqələri mövcuddur”

## *Prezident İlham Əliyev ABŞ Dövlət katibi köməkçisinin birinci müavininin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunda ABŞ-ın Dövlət katibi köməkçisinin birinci müavini Kent Loqsdonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın göndərdiyi məktuba görə minnətdarlığını bildirdi, bunu güclü tərəfdaşlıq əlaqələrimizin göstəricisi kimi dəyərləndirdi və son bir neçə gündə ABŞ Prezidenti tərəfindən iki məktubun ünvanlanmasını yüksək qiymətləndirdi.***



Qəbula görə minnətdarlığını bildirən Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunda ABŞ-ın Dövlət katibi köməkçisinin birinci müavini Kent Loqsdon Bakıda keçirilən XXVI Beynəlxalq “Xəzər Neft və Qaz-2019” sərgi və konfransında iştirakdan məmnunluqlarını bildirdi və bu mühüm tədbirin 26-cı ildönümü münasibətilə təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Azərbaycanda keçirilən XXVI Beynəlxalq “Xəzər Neft və Qaz-2019” sərgi və konfransının əhəmiyyətinə toxundu, tədbirin uzun illərdir ki, dünyanın aparıcı şirkətlərini cəlb etdiyini vurğulayaraq Amerika Birləşmiş Ştatlarının burada geniş şəkildə təmsil olunmasının önəmini qeyd etdi. Söhbət zamanı “Cənub Qaz Dəhlizi” layihəsinin icrası, energetika, bərpa olunan enerji mənbələri, biznes sahəsində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# “Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlıq həyata keçirilir”

## *Prezident İlham Əliyev UEFA-nın prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) prezidenti Aleksandr Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev Aleksandr Çeferin və UEFA Avropa İcraiyyə Komitəsinin üzvləri ilə əvvəlki görüşünü xatırlayaraq yenidən nümayəndə heyətinin Bakıya səfərindən məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev Azərbaycan ilə UEFA arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi.

Avropa Futbol Assosiasiyaları Birliyinin prezidenti Aleksandr Çeferin Bakıda UEFA Avropa Liqasının final oyununun keçirilməsi üçün yüksək səviyyədə hazırlıq işlərinin görüldüyünü qeyd etdi. O, Bakının çox gözəl şəhər olduğunu, müasir inkişafı və tarixi ənənələri özündə birləşdirdiyini vurğuladı, onların paytaxtımızda özlərini çox rahat hiss etdiklərini dedi. UEFA-nın Prezidenti Aleksandr Çeferin Avropa Futbol Assosiasiyaları Birliyinin Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə uğurlu əməkdaşlıq həyata keçirdiyini qeyd edərək yaradılmış şəraitə görə minnətdarlığını bildirdi. Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev Dənizkənarı Milli Parkda gəzintiyə çıxıb





Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri paytaxtın Dənizkənarı Milli Parkında gəzintiyə çıxıblar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Dənizkənarı Milli Parkda istirahət edən sakinlərlə və şəhərimizin qonaqları ilə görüşüblər.

# "Çelsi" Bakıda Avropa Liqasının qalibi oldu!







Dünən Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final qarşılaşması keçirilib. SİA-nın məlumatına görə, final görüşündə Londonun "Çelsi" və "Arsenal" komandaları qarşılaşıblar.

Nominal ev sahibinin - "Çelsi"nin start heyətində meydana Kepa Arrisabalaqa (1), Sezar Aspilikueta (28), Andreas Kristiensen (27), David Luis (30), Emerson Palmieri (33), Mateo Kovaçiç (17), Jorjinyo (5), Nqolo Kante (7), Pedro Rodriqes (11), Oliviye Jiru (18) və Eden Hazard (10) meydana çıxıblar.

"Arsenal" klubunun start heyətində isə Petr Çex (q), Sead Kolaşinats (31), Loran Koselni (6), Sokratis Papastatopulos (5), Naço Monreal (18), Enzli Meytlend-Naylz (15), Qranit Xaka (34), Lukas Toreyra (11), Pyer-Emerik Obameyanq (14), Mesut Özil (10) və Aleksandr Lakezet (9) yer alıblar.

Oyunu italiyalı referi Canluka Rokki idarə edib. UEFA Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət (VAR) sistemindən istifadə olunub. Olduqca gərgin keçən qarşılaşmada "Çelsi" əzəli rəqibi olan "topçular"ı 4:1 hesabı ilə məğlub edib.

Bununla da "Çelsi" ikinci dəfə UEFA Avropa Liqasının qalibi adını qazanıb. Xatırladaq ki, "Çelsi" isə 2012-2013-cü il mövsümündə də UEFA Avropa Liqasının qalibi adını qazanıb. "Arsenal" isə tarixində heç vaxt UEFA Avropa Liqasının kubokuna sahib ola bilməyib



# Birinci vitse-prezident Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri ilə görüşüb





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mayın 29-da "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşildi Bakıda görməkdən məmnunluğunu bildirdi.

Xatırladaq ki, bu ilin mart ayında Parisə səfəri çərçivəsində Mehriban Əliyeva David dö Rotşild ilə görüşü zamanı onu Bakıya dəvət etmişdi. Həmin səfər zamanı Azərbaycan Mərkəzi Bankı ilə "Rothschild Global Financial Advisory" şirkəti arasında strateji əməkdaşlıq haqqında saziş imzalanmışdı.

"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild bu görüşdən şad olduğunu bildirərək, Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu dedi. Söhbət zamanı əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

# ABŞ-Azərbaycan əməkdaşlığında yeni impuls və seqmentlər

## *Donald Tramp: “Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir”*

***Bu gün beynəlxalq birliyin ən fəal üzvlərindən birinə çevrilən Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdür, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Etiraf etmək lazımdır ki, ABŞ planetimizin əsas güc mərkəzlərindən biridir və yeni dünya düzəninin qurulmasında bu ölkənin kifayət qədər böyük rolu var. Bu mənada Azərbaycanla ABŞ arasındakı münasibətlər xüsusi əhəmiyyət kəsb edir.***



Siyasi, iqtisadi, sosial və humanitar sahələrdə keyfiyyətcə yeni xarakter alan və beynəlxalq münasibətlər sistemində güclü siyasi arxitekturaya çevrilən Azərbaycan-ABŞ əlaqələri pozitiv şaxə alaraq daha dərin məna və məzmun kəsb etməkdədir. Hər iki ölkənin formalaşdırdığı geniş və güclü əməkdaşlıq platforması regionda dinamikliyi və uzunömürlü humanitar gələcək üçün siyasi hərarəti ilə diqqəti cəlb edir. Münasibətlərin dərinləşməsinə hər il bir çox iqtisadi komponentlərin əlavə olunması ABŞ-Azərbaycan əməkdaşlığına impuls verir, yeni seqmentlər qatır.

Azərbaycanın beynəlxalq tərəfdaşları arasında ən ön yerlərdən birini tutan və güclü siyasi etibarlılıq və etimadlılıq nümayiş etdirən Amerika strateji tərədaşlığın əsas brendlərindən birinə çevrilməsini öz siyasi qətiyyəti ilə nümayiş etdirib, təsdiq edib. Eyni zamanda, Azərbaycan ikitərəfli əlaqələrdə öz siyasi diplomatiyası ilə tərəfdaşlıqda səmimi və praqmatikliyini bariz şəkildə təsdiqləyib. Azərbaycanın xarici siyasət kursu geniş komponentli, geniş diapazonlu balanslaşdırılmış təməllərə söykənən müstəvidə və tarazlı kursa uyğun müəyyən olunub. Bu kurs müəyyənləşdirilərkən ilk növbədə bütün tərəflərlə bərabər və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Ötən illər ərzində Azərbaycanın ABŞ-la balanslaşdırılmış xarici siyasət kursu bir qədər də möhkəmlənərək həm post-sovet ölkələri, həm də Avropanın, Asiyanın, Amerikanın, eləcə də Afrika və Yaxın Şərq dövlətləri ilə səmimi münasibətlərin simvoluna çevrilib. Respublikamızın Amerika ilə münasibətləri səmimi dostluq münasibətlərinə, qarşılıqlı maraqlara söykənərək inkişaf edir. Tərəfdaş dövlətlərlə siyasi-iqtisadi əlaqələr çox fəal siyasi dialoq mühitində inkişaf edərək iqtisadi əməkdaşlığa, elmi-mədəni əlaqələrin yüksəlməsinə, humanitar əməkdaşlığa öz töhfəsini verməkdədir.

Xarici tərəfdaşlarla ən yüksək formatda əlaqələrinvə dinamik təmasların möhkəmlənməsi və yeni frazaya daxil olmasında bu fundamental konsepsiyanın müəllifi, birbaşa təşəbbüskarı və ideoloqu kimi Prezident İlham Əliyevin qətiyyətli addımları ilbəil öz təsir gücünü artırır, dövlətlərarası əlaqələrin daha çoxçalarlı inkişafına zəmin yaradır. Kamil və geniş, qlobal dünyagörüşə, analitik təhlil bacarığına, praqmatik baxışlara malik olan mükəmməl siyasi xadim olan Prezident İlham Əliyev özünəməxsus idarəçilik keyfiyyətləri ilə regionda digərləri üçün örnək ola biləcək ənənələri formalaşdırır, daim yeniliklər axtarışında olduğunu öz əməli nəticələri ilə nümayiş etdirir. Ölkəmiz milli maraqlar çərçivəsində dünyanın bütün aparıcı beynəlxalq təşkilatları ilə, o cümlədən, böyük dövlətlərlə münasibətlər qurur, əlaqələrini genişləndirir və inkişaf etdirir. Azərbaycan-ABŞ münasibətləri də bu kriteriyalara söykənir. Bütün bu müsbət meyillərin ən yaxşı təzahürləri də məhz ABŞ-Azərbaycan əlaqələrinin hər bir sektorunda özünü göstərməkdədir. Bölgədə müəyyən iqtisadi maraqlarını gerçəkləşdirməyə çalışan ABŞ-la münasibətlər xarici investisiyaların cəlb edilməsi, dünya iqtisadiyyatına inteqrasiya, qlobal əhəmiyyətli regional layihələrin reallaşdırılması, ölkənin maliyyə gəlirlərinin artırılması və digər bu kimi hədəflərə yönələn Azərbaycanın mənafelərinə uyğundur.

ABŞ Azərbaycanın strateji tərəfdaşı olmaqla yanaşı, tərəflər arasında bir çox istiqamətləri əhatə edən yüksək səviyyəli münasibətlər mövcuddur. Tərəflər arasındakı münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. İstər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf edərək getdikcə öz əhatə dairəsini genişləndirməkdədir. Azərbaycan Birləşmiş Ştatlarla geniş iqtisadi əməkdaşlıq əlaqələri qurub. Bu əməkdaşlığın əsas istiqamətlərini isə Azərbaycanda neft və qaz sektorunun inkişafı, yeni boru kəmərlərinin tikintisi və istismarı, Şərq-Qərb dəhlizi boyu infrastruktur layihələrinin həyata keçirilməsi, qeyri-neft sektoru sahəsində qarşılıqlı ticarətin genişləndirilməsi və s. təşkil edir. İki ölkə arasında iqtisadi münasibətlərin genişlənməsinin göstəricilərindən biri olaraq ticarət dövriyyəsinin həcmi də ildən-ilə artmaqdadır.

ABŞ-Azərbaycan münasibətlərinin inkişafını şərtləndirən ən əsas məqamlardan biri Azərbaycanın karbohidrogen ehtiyatları, həmçinin, bu ehtiyatların daşındığı əsas tranzit ölkəsi olmasıdır. Həmçinin Azərbaycan-ABŞ münasibətlərinin mühüm istiqamətlərindən birini hərbi-siyasi və təhlükəsizlik sahəsində əməkdaşlıq təşkil edir.

Qeyd edək ki, dünyanı narahat edən bir çox məsələlərdə Azərbaycanla ABŞ-ın mövqelərinin üst-üstə düşməsi uzunmüddətli strateji əməkdaşlığa imkan verən başlıca faktorlardandır. Belə ki, hər iki ölkə dünyada sülh və təhlükəsizliyin, əmin-amanlığın tərəfdarı kimi çıxış edir. Bu baxımdan, Azərbaycanla ABŞ arasında terrorçuluqla mübarizə sahəsində əməkdaşlığı xüsusi vurğulamaq lazımdır.

Hər iki ölkə demokratiyanın və qanunun aliliyinin möhkəmləndirilməsi, insan hüquqlarına hörmət edilməsi kimi məsələlərdə əməkdaşlığın vacibliyinin şərt olduğunu bildirib və bu istiqamətdə əməkdaşlıq nümayiş etdirib. Beynəlxalq terrorizmə qarşı mübarizədə sərgilədiyi fəaliyyətlə yanaşı, Azərbaycan həm də yerləşdiyi bölgədə sülhün bərqərar olmasında mühüm rola malikdir. Bu gün aydındır ki, Cənubi Qafqaz bölgəsinin inkişafına, dövlətlərarası münasibətlərin daha yüksək səviyyədə qurulmasına, o cümlədən, dünyaya inteqrasiyanın daha yüksək sürətlə həyata keçirilməsinə və sülhün təminatına ən böyük maneə məhz Ermənistanın işğalçı siyasətidir. Azərbaycan torpaqlarını işğal altında saxlayan və artıq uzun illərdir ki, qeyri-konstruktiv mövqe nümayiş etdirməklə Ermənistan özünü beynəlxalq layihələrdən kənarda saxlayıb və regionun ümumi inkişaf tempindən dəfələrlə geridə qalıb. Münaqişənin tənzimlənməsində vasitəçi olan ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ regionda sülhün bərqərarı istiqamətində fəaliyyət nümayiş etdirir.

Qeyd edək ki, son bir neçə gündə ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə iki təbrik məktubu ünvanlanması da ABŞ-Azərbaycan əlaqələrinin yüksək səviyyəsini, Amerikanın Azərbaycana yüksək önəm verdiyini aydın göstərir. Prezident Donald Tramp mayın 24-də 28 may Respublika günü münasibətilə Prezident İlham Əliyevə ünvanladığı məktubda ABŞ-Azərbaycan əlaqələrini “bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq kimi səciyyələndirir”. Siyasi, iqtisadi, enerji, təhlükəsizlik və digər sahələri əhatə edən bu tərəfdaşlıq yüksələn xəttə üzrə inkişaf edir. Azərbaycanın həyata keçirdiyi qlobal enerji layihələri Avrasiyanın enerji xərisini dəyişdirir, Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir. Azərbaycan sülhməramlıları beynəlxalq koalisiyanın tərkibində dünyanın müxtəlif qaynar nöqtələrində sülh və sabitliyin bərqarar olmasında fəal iştirak edirlər. Azərbaycan terrorizm də daxil olmaqla beynəlxalq təhlükəsizliyi təhdid edən hallara qarşı fəal mübarizənin önündə gedən ölkələrdən biridir.

ABŞ Prezidenti “Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və Cənub Qaz Dəhlizi təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində” Prezident İlham Əliyevin liderliyini xüsusi vurğulayır və dəyərləndirir. Bu, bir daha Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və prinsipial siyasi kursun təkcə Azərbaycanın milli maraqlarının təmin olunmasına yönəlmədiyini, həm də regionda və daha geniş coğrafiyada səmərəli əməkdaşlığın və qarşılıqlı etimadın yüksəlməsinə xidmət etdiyini göstərir.

ABŞ Prezidenti Azərbaycanda islahatlar istiqamətində, xüsusilə də qanunun aliliyi sahəsində Azərbaycan xalqının mənafeyinə xidmət edəcək və iki ölkə arasında əməkdaşlığın dərinləşməsi üçün imkanlar yaradacaq bütün addımları alqışlayır. Bir daha görünür ki, AB, Azərbaycanda həyata keçirilən islahatlar kursunu yaxından izləyir, onun nəticələrini görür və perspektivini yüksək qiymətləndirir. ABŞ Prezidenti hesab edir ki, bu islahatlar Azərbaycanın rifahına xidmət etdiyi kimi, həm də ölkəmizin beynəlxalq əlaqələrinin daha da yüksəlməsinə töhfə verir.

Cənab Tramp Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində şəxsi iştirakını və səylərini təqdir edir.

ABŞ Prezidenti iki ölkə arasında tərəfdaşlığın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzulayır.

ABŞ Prezidenti Donald Tramp Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin keçirilməsinin 26-cı ildönümü ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktubda bildirib: “Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. Cənub Qaz Dəhlizi daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir.

Türkmənistan və Şərqi Aralıq dənizi hövzəsi ölkələri kimi digər potensial təchizatçılarla tərəfdaşlıq quraraq Azərbaycan daha böyük liderlik rolu oynaya bilər. Ölkənizin uğurlarını genişləndirməyin əsl vaxtıdır.

Amerika Birləşmiş Ştatları xarici sərmayələrin cəlb edilməsi və innovasiyaların təşviqinə xidmət edəcək iqtisadi islahatların davam etdirilməsində səylərinizi dəstəkləyir. Azərbaycanın iqtisadi uğuru bütün regiona sabitliyin gətirilməsinə yardım edəcəkdir. Mən birgə səylərimizlə Cənubi Qafqazın daha da dinc, demokratik və firavan olması üçün əməkdaşlığımızın davamlı olmasını arzulayıram”.

***“SƏS” Analitik Qrupu***

# Əcnəbi azarkeşlər: “Azərbaycanda təhlükəsizlik yüksək səviyyədədir”

Bakıda keçirilən UEFA Avropa Liqasının final oyunu olə əlaqədar paytaxtımıza öz komandasını dəstəkləmək üçün minlərlə turist gəlib. Dünyanın müxtəlif ölkələrindən gələn azarkeşlər SİA-ya verdikləri açıqlamalarda Azərbaycanın mötəbər idman yarışlarını yüksək səviyyədə təşkil etdiyini bildiriblər:

### İngiltərəli azarkeş Ray Bots:



- Azərbaycana Londondan gəlmişəm. Avropa Liqasının final oyunun izləmək üçün Bakıdayam. Təşkilatçılıq yüksək səviyyədədir. Burada insanlar qonaqpərvərdirlər. Lazım olanda qonaqlara öz köməkliklərini də əsirgəmirlər. Burda özümü xoşbəxt hiss edirəm . “Arsenal” komandasına azarkeşlik edirəm.

### Rusiyalı azarkeş Andrey:



- Təşkilatçılıq yüksək səviyyədədir. Biz “Çelsi”yə azarkeşlik edirik. Bundan əvvəl biz 2013-cü ildə də final oyununu izləmişik. İnsanlar bir-biri ilə dostluq münasibətlərindədirlər. Biz artıq üç gündür ki, Azərbaycandayıq. Bunun insanları bizə çox mehriban münasibət bəsləyirlər. Nə barədə müraciət etsək, köməklik edirlər. Bu da çox sevindiricidir. Bakı çox gözəldir. Xəzər dənizi isə hamımızın xoşuna gəlir.

### İranlı azarkeş Moi:



- Bütün təşkilati işlər çox yüksək səviyyədədir və yaradılan hər şəraitdən də razıyıq. Mən “Arsenal” komandasına azarkeşlik edirəm. Bu şəhərə də oyunu izləmək üçün gəlmişəm. Bakını çox bəyənirik.

### İngiltərəli azarkeş Devid Edni:



- İngiltərədən Azərbaycana UEFA Avropa Liqasının final oyununu izləmək üçün gəlmişəm. İlk dəfədir Azərbaycanda səfərdəyəm. Bakını gəzmək fürsətim də oldu. Paytaxtınız çox gözəldir. Azərbaycanlılar çox istiqanlı və qonaqpərvərdirlər. Paytaxtınızın sakinləri biz turistlərə hər zaman kömək edirlər. Buradakı təşkilatçılıq çox yüksək səviyyədədir. Bakıda yerləşən məkanlarınız olduqca gözəldir. Xidmət səviyyəsi də yüksək dərəcədədir.

### Rusiyalı azarkeş Nikita Medvikov:



- Avropa Liqasının final oyununa baxmaq üçün Azərbaycandayam. “Arsenal” futbol klubunu dəstəkləyirəm. Onu da qeyd edim ki, Azərbaycan xalqı çox nəzakətlidir. Ölkənizdə hər şey əladır, çox bəyəndim.

### Küveytli azarkeş Həmid Lazin:



- İlk dəfə Bakıda olmağıma baxmayaraq, burada çox rahatam. Azərbaycanda təhlükəsizlik çox yüksək səviyyədədir. Bakı çox möhtəşəm, gözəl şəhərdir. Buradakı insanlar çox istiqanlı və mehribandırlar. Hər kəs bizimlə çox nəzakətlə davranır və köməklik göstərir. Bakı Olimpiya Stadionunda olmamışam, lakin, şəkillərini görmüşəm və bilirəm ki, ora yeni, möhtəşəm bir tikilidir. Bakı Olimpiya Stadionunun möhtəşəm bir idman qurğusu olduğunu bilirəm. Orada final oyununa baxmaq mənim üçün çox xoş olacaq.

### Vyetnamlı azarkeş Luk:



- Vyetnamdan gəlmişəm. Şəhərinizi çox bəyəndim. Mən “Çelsi”yə azarkeşlik edirəm. İnanıram ki, Avropa Liqasının final matçı olduqca maraqlı keçəcək. Bakıda ilk dəfədir oluram. Paytaxtınızın qədim tarixə malik şəhər olduğunu gördüm. Tarixi abidələriniz diqqətimi çəkdi. Oyundan sonra şəhəri rahat gəzəcəyəm. Hər şey çox gözəldir. Əminəm ki, buraya yenə gələcəyəm.

### - Rusiyalı azarkeş Anastasiya:



- Bakıya UEFA Avropa Liqasının final oyununu izləməyə gəlmişik. “Arsenal” futbol klubuna bu gün də azarkeşlik edəcəyəm. Azərbaycanda təşkilatçılıq çox yüksək səviyyədədir. Bu da Bakıya gələn qonaqları sevindirir. Azərbaycanlılar qonaqpərvərdirlər.

### Qazaxıstanlı azarkeş Nazar Sultanov:



- Dünən Qazaxıstandan gəlmişəm. UEFA Avropa Liqasının final oyununu izləmək üçün buradayam. Yaxşı ki, Bakıdayam, burda hər şey ürəyimcədir. Bakı küçələrində gəzərkən insanların azarkeşlərə gülərüz baxması çox xoşuma gəlir. İnsanlarınız çox səmimi və mehribandır. Oyunu səbirsizliklə gözləyirəm. Azarkeşlərə göstərilən diqqət üçün minnətdarlığımı bildirirəm.

### İranlı azarkeş İman Kamali:



- Bakıya iki gündür gəlmişəm. Azərbaycanda ilk dəfədir oluram. Burada təşkilatçılıq çox yüksək səviyyədədir. Düşünürəm ki, Azərbaycanda Avropa Liqasının final oyununu izləmək yaddaqalan olacaq. Bu, tarixi bir andır. Burada çox rahatam və yaxşı dincəlirəm. İnsanların bir-birinə gözəl münasibəti var. Həm təşkilatçılığı, həm insanların azarkeşlərə olan səmimi münasibətini yüksək qiymətləndirirəm. Burada futbol bayramının əhval-ruhiyyəsi hiss olunur.

### Rusiyalı azarkeş Vyaçeslav:



- Moskvadan oyunu izləmək üçün gəlmişəm. Bir neçə gündür Bakıdayam. UEFA Avropa Liqasının final oyununun Azərbaycanın paytaxtında olması gözəl haldır. İnsanlardan çox gözəl münasibət görürük. Çox məmnunam ki, buraya gəlmişəm. Onu da deyim ki, burada qayda-qanuna ciddi riayət olunur və bu məni sevindirir. Mən “Arsenal” komandasına azarkeşlik edirəm.

*Elgün Vidadioğlu*



# Bakı əcnəbi azarkeşlərin gözü ilə!

*Bu günlər Azərbaycanda, xüsusən paytaxt Bakıda əsl futbol bayramı yaşanır. Bakı Olimpiya Stadionunda UEFA Avropa Liqasının finalını izləmək üçün Azərbaycana dünyanın hər yerindən “Arsenal” və “Çelsi” komandalarının minlərlə azarkeşi gəlib. Onlar AZƏRTAC-ın əməkdaşlarına müsahibələrində Azərbaycan paytaxtının gözəlliyi, təhlükəsizliyi, xalqımızın qonaqpərvərliyi, milli mətbəximizin zənginliyi, qitənin ən böyük ikinci klub turnirinin finalına yüksək səviyyədə hazırlıqla bağlı təəssüratlarını bölüşürlər. Əksəriyyət bu fikirdədir ki, Azərbaycan bütün dünyada maraqla gözlənilən qarşılaşmaya uğurla ev sahibliyi edir.*




### “Dünyanın ən təhlükəsiz şəhərlərindən biri olan Bakı futbol azarkeşlərinin səbirsizliklə gözlədiyi qarşılaşmaya uğurla ev sahibliyi edir”

**İsrailli Aziz Raz:** Azərbaycanın qonaqpərvər insanları haqqında çox eşitmişəm. Final matçından əvvəl müəyyən dairələrin yaymağa çalışdıqları şayiələrin heç bir əsası yoxdur. Azərbaycanın həmişə mühüm beynəlxalq idman yarışlarına yüksək səviyyədə ev sahibliyi etməsinin şahidi olmuşuq. Bakı dünyanın ən təhlükəsiz şəhərlərindən biridir. Burada özümü çox rahat hiss edirəm. Bakıya bir daha gəlmək haqqında düşünürəm.

**“Arsenal” klubunun azarkeşi Nik Adams:** Bakıda əsl idman bayramı əhval-ruhiyyəsi hökm sürür. Mayın 29-da keçiriləcək möhtəşəm oyunun bir parçası olmaq bizim üçün çox qürurvericidir. Əminəm ki, Azərbaycan bütün dünyanın səbirsizliklə gözlədiyi tədbirə uğurla ev sahibliyi edəcək.

**ABŞ-dan olan futbol həvəskarı Patris Bartel:** Azərbaycan paytaxtında bənzərsiz qonaqpərvərlik gördüm. İnanıram ki, gözəl ölkənizə səfər edən hər bir azarkeş unudulmaz anlar yaşayacaq.

**İraqlı Abdulla Sami:** Bakı bu möhtəşəm final oyununa ciddi hazırlaşıb. Bunu azarkeşlər üçün yaradılan şəraitdən də görmək mümkündür. Burada turistlər üçün maraqlı əyləncə proqramı hazırlanıb, bütün təhlükəsizlik tədbirləri görülüb.

### “Bu gözəl ölkəyə səfər edən hər bir azarkeş xoş və unudulmaz anlar yaşayacaq”

**İngilis Peter Çambers:** Bakı UEFA Avropa Liqasının final oyununu keçirmək üçün yaxşı məkandır. Sakit və təhlükəsiz şəhər olan Bakı bu maraqlı qarşılaşmaya uğurla ev sahibliyi edəcək. Ölkənizdəki insanlar qonaqpərvərdirlər. Ailəmlə birgə şəhəri gəzəndə şəxsən şahidi olduq ki, burada qonaqlara səmimi münasibət var. Əminəm ki, bu gözəl ölkəyə səfər edən hər bir azarkeş xoş anlar yaşayacaq.

**Xorvatiyalı Mate Vukoja :** Azərbaycanın çox zəngin milli mətbəxi var. Mümkün qədər bütün xörəklərdən dadmaq istəyirəm. Azərbaycan xalqı öz mətbəxi ilə fəxr edə bilər.

**Filip Sostaric (Serbiya):** Unikal memarlıq üslubuna malik Bakını çox bəyəndim. Bir tərəfdə hündür, müasir binalar, digər tərəfdə isə qədim və köhnə şəhər... Bütün bunlar çox gözəl harmoniya yaradır. İlk dəfədir ki, Azərbaycandayam və təəssüratlarım çox zəngdir.

**Eymr Cek (İndoneziya):** Azərbaycana ilk dəfədir səfər edirəm. Şəhərinizi çox sevdim. Bakı gözəl və romantik şəhərdir. Onun memarlıq üslubu və Dənizkənarı Bulvarı möhtəşəmdir. Ailələmlə birgə İçərişəhərdə olduq, Qız qalasına qalxdıq, Xəzər dənizinin gözəl mənzərəsini seyr etdik. Tarixi abidələrlə zəngin İçərişəhəri xüsusi qeyd etmək istərdim.

**“Arsenal” klubunun azarkeşi Luis Tarrant:** Bakı çox gözəl şəhər, sakinlər isə mehriban insanlar kimi daim xatirimdə qalacaq. Bu şəhərin gözəlliyi məni valeh etdi. Dənizkənarı Bulvar çox möhtəşəmdir. Buradan “Alov qülləri” çox möhtəşəm və valehedici görünür.

### “Bakı dünyanın ən böyük və gözəl şəhərləri ilə eyni səviyyədə dayanır”

**Pakistanlı Ali Rezvan:** Bakının gözəl yerlərini görmək üçün daha çox gəzməyə çalışıram. Onun qədim və gözəl tarixi şəhər olduğu ilk baxışdan hiss olunur. Çünki hər küçədə bir neçə tarixi binaya rast gəlmək olur. İnsanların qonaqpərvərliyinə və mehribanlığına isə söz ola bilməz.

Xorvatiyalı Mate Vukoja: Bakı çox rəngarəng, zəngin mədəniyyəti olan gözəl şəhərdir. Burada diqqətimi cəlb edən ən əsas cəhət şəhərin son dərəcədə özünəməxsus memarlıq üslubunda inşa edilən binalarla zəngin olmasıdır. Bakıda elə küçələr var ki, orada özümü Los-Ancelesdə, başqa bir küçədə isə sanki Moskvada hiss edirəm. Bu da Bakının dünyanın ən böyük və gözəl şəhərləri ilə eyni səviyyədə olduğunu göstərir. Ümumilikdə Bakı memarlıq üslubuna görə mənə daha çox Parisi xatırladır.

**İngiltərəli Neil Ray:** “Arsenal”-”Çelsi” qarşılaşmasını səbirsizliklə gözləyirik. Oyundan sonra isə bir həftə Bakıda qalacağıq. Artıq İçərişəhərdə olmuşuq. Bu bənzərsiz məkanla tanışlıq insanda unudulmaz hisslər oyadır. Paytaxtınızın görməli yerləri ilə ətraflı tanış olmaq imkanını əldən verməyəcəyik.

**Toni Holl (Nigeriya):** Oyuna hazırlıq yüksək səviyyədədir. Bakıda azarkeşlərin təhlükəsizliyi tam təmin olunub. Polis əməkdaşları, sadə insanlar bizə qarşı çox diqqətli və mehribandırlar. Onlar əcnəbilərə kömək edir, istiqamət verirlər. Mümkün olduğu qədər Bakını gəzməyə, şəhərlə daha yaxından tanış olmağa çalışırıq. Bakıda olmağıma çox şadam.

## “Çelsi” klubunun azarkeşi: Ölkənizdə sabitlik və tolerantlıq hökm sürür

***Azərbaycana ikinci dəfədir gəlirəm. Belə ki, iki il əvvəl burada UEFA Çempionlar Liqasının qrup mərhələsinin oyunları çərçivəsində “Qarabağ” - “Çelsi” qarşılaşmasını izləmişəm. Ötən müddət ərzində şəhəriniz daha da valehedici olub. Bakının gözəlliyi, insanların mehribanlığı gələn qonaqlara müsbət enerji və xoş təəssürat bəxş edir. Bugünkü final matçına maraq böyükdür. Azarkeşlərin gərgin və maraqlı idman mübarizəsinə şahid olacağına və ən əsası da “Çelsi”nin qalib gələcəyinə inanıram.***

Bu sözləri AZƏRTAC-a müsahibəsində “Çelsi” klubunun azarkeşi olan iranlı Farbod Fallahi deyib. “Final oyununu izləmək üçün Azərbaycana gələn turistlər üçün yaradılan şəraitə, görülən təhlükəsizlik tədbirlərinə söz ola bilməz. Hər kəs burada özünü rahat hiss edir. Ölkənizdə sabitlik və tolerantlıq hökm sürür. Onu da xüsusi qeyd edim ki, yeməklərinizin dadı möhtəşəmdir”, - deyə iranlı turist bildirib.




## İrlandiyalı turist: Belə nüfuzlu turnirin finalının keçirilməsi üçün Bakının seçilməsi düzgün qərardır

Mən 2008-ci ildən başlayaraq, Çempionlar Liqasının və Avropa Liqasının final oyunlarını hər il canlı izləyirəm. Bu il Avropa Liqasının finalı Azərbaycanın paytaxtında keçirilir. Mən bu şəfəq saçan təmiz şəhərə vuruldum. Bakıya dünən gəlmişəm, lakin bu qısa müddətdə dost qazana bilmişəm. Azərbaycanlılar çox mehriban və qonaqpərvərdirlər. Məndə sizin xalqınız barədə çox yaxşı fikir yaranıb. Hesab edirəm ki, Avropa Liqası kimi nüfuzlu turnirin finalının keçirilməsi üçün Bakının seçilməsi düzgün qərardır.

Bu barədə AZƏRTAC-a müsahibəsində dostları ilə Bakıya UEFA Avropa Liqasının bugünkü final matçını izləməyə gəlmiş irlandiyalı azarkeş Cerald Moragen bildirib. İrlandiyalı turist sözlərini belə tamamladı: “Hesab edirəm ki, idman turnirlərinin final matçlarının keçirilmə coğrafiyası genişləndirilməlidir. Niyə bu cür nüfuzlu turnirlər həmişə İngiltərədə, Almaniyada, Fransada keçirilməlidir? Nəyə görə bu oyunlar Azərbaycanda və ya Ukraynada, Türkiyədə, Gürcüstanda təşkil edilməməlidir? Sizin dövlətiniz bu matçın keçirilməsinə yaxşı hazırlaşıb. Mən, həmçinin pulsuz nəqliyyat, azarkeşlərin identifikasiyası və digər yeniliklər kimi uğurlu təşəbbüsləri qeyd etməyə bilmərəm”.



# Hikmət Hacıyev İtaliya mətbuatına: Futbol siyasiləşdirilməməlidir


QUOTIDIANO.NET

ECONOMIA SPORT MOTORI TECH MAGAZINE SALUTE SPREAD COMUNALI METEO GIRO SPECIALI

HOME › ESTERI Pubblicato il 28 maggio 2019

Il Nagorno e Europa League, Azerbaigian: non politicizzare calcio

Ultimo aggiornamento il 28 maggio 2019 alle 20:34

Condividi Tweet Invia tramite email

POTREBBE INTERESSARTI ANCHE

ESTERI

Usa: è ancora emergenza tornado, case rase al suolo in Ohio

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İtaliyanın kütləvi informasiya vasitələrinə müsahibəsində Avropa Liqasının Bakıda keçiriləcək final oyununa "Arsenal" komandasının futbolçusu Henrik Mxitaryanın gəlməyəcəyi məsələsi ətrafında yaranmış vəziyyətə münasibət bildirib.

Şöbə müdiri deyib ki, gəlməməklə bağlı qərar onun və klubunun qərarıdır: "Biz Azərbaycan olaraq bəyan etmişik ki, Mxitaryan da daxil olmaqla, Bakıda oynamağa gələn bütün futbolçuların təhlükəsizliyinə zəmanət verəcəyik. Təəssüf ki, futbolun siyasiləşdirilməsi tendensiyasını və ya cəhdlərini görürük ki, bu da qəbuledilməzdir. Futbol, ümumiyyətlə, idman siyasətdən uzaqdır və siyasiləşdirilməməlidir. Bu xüsusda, biz Azərbaycana qarşı informasiya müharibəsini görürük. Hər iki kluba - "Arsenal" və "Çelsi"yə uğurlar arzu edirik. Bütün Avropa qitəsində futbolun əsl dəyərlərinin təşviq edilməsinin və şəxsi məqsədlər üçün futbolu siyasiləşdirən elementlərin qarşısının alınması üçün birlikdə çalışmağın tərəfdarıyıq".

Azərbaycan və Ermənistan arasında münaqişənin mövcud olduğunu, lakin nə futbolun, nə də Mxitaryanın hansı millətdən olmasının bununla əlaqəsinin olmadığını və onun futbolçu kimi Azərbaycana gələ biləcəyini deyən Hikmət Hacıyev əlavə edib: "Ermənistan Azərbaycana qarşı müharibəni davam etdirir və Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlayır. Bir milyon azərbaycanlı etnik təmizləməyə məruz qalıb. ABŞ, Fransa və Rusiya vasitəçi qismində münaqişənin sülh yolu ilə həlli üçün çalışırlar. Azərbaycan bu səyləri dəstəkləyir. Beynəlxalq ictimaiyyətlə birlikdə tezliklə münaqişənin həlli yollarına nail olmağa və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinin işğalına son qoymasına çalışırıq".

Müsahibə Il Sole 24 Ore, Libero Quotidiano, Il Tempo, Affari Italiani, Il Foglietto-ne, Quotidiano, Corriere di Siena, Corriere di Rieti, Corriere di Arezzo, Corriere di Viterbo, Corriere dell'Umbira, Unione Sarda, Virgilio, Yahoo Notizie kimi mətbuat orqanlarında dərc edilib.

# Milli Məclisdə "Azərbaycan Avropa məkanında" adlı konfrans keçirilib



Mayın 29-da Milli Məclisdə "Azərbaycan Avropa məkanında" adlı konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markov Azərbaycanın çox vacib geosiyasi məkan olduğunu deyib. Bildirib ki, Azərbaycanda müntəzəm olaraq beynəlxalq tədbirlər keçirilir və bu ölkə dünya xalqları arasında beynəlxalq dialoq mərkəzlərindən biridir. Bu tədbirlərdə çoxlu sayda Nobel mükafatları laureatları iştirak edir.

S.Markov qeyd edib ki, Azərbaycan xristian və müsəlman dünyasının, Asiya və Avropanın kəsişməsində yerləşir və buna görə də müxtəlif sivilizasiyalar arasında nadir rol oynayır. Biz hamımız dialoqun tərəfdarıyıq. Hər bir xalqın bir sıra problemləri var. Çox vacibdir ki, biz həmin problemləri başa düşək və onların həlli üçün yolları birgə axtaraq.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Fuad Axundov çıxış edərək diqqəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə cəlb edib. O deyib ki, Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Ermənilər Azərbaycan torpaqlarına iki əsr əvvəl çar Rusiyası tərəfindən yerləşdirilib. Ermənistan monoetnik ölkədir, orada yalnız ermənilər yaşayır. Hazırda da Ermənistanın əhalisi yalnız ermənilərdən ibarətdir. Qafqaz elə bir regiondur ki, burada müxtəlif xalqlar yaşayır. Ona görə də monoetnik dövlətin burada olması çox təəccüblüdür. Yaponiya da monoetnik ölkədir. Ancaq bu, təbiidir. Çünki bu ölkə hər tərəfdən su ilə əhatə olunub. Ermənistanın ətrafında isə Azərbaycan, Gürcüstan, Türkiyə var, onlar hamısı polietnik ölkələrdir. Burada müxtəlif dinlərə, dillərə mənsub xalqlar yaşayır. Ermənilər işğal etdikləri Dağlıq Qarabağda etnik təmizləmə apardılar, oradan azərbaycanlılar çıxarıldı. Bu, nasist siyasətdir. Fuad Axundov qeyd edib ki, Azərbaycan beynəlxalq təşkilatlarla əməkdaşlıq edir, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri dünyaya çatdırır. Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidov bildirib ki, Azərbaycanın torpaqları Ermənistan tərəfindən işğal edilib. BMT-nin qətnamələrində Azərbaycan ərazilərinin işğal altında olduğu aydın şəkildə göstərilib. Lakin dünya ictimaiyyəti buna biganə yanaşır, ikili standartlar nümayiş etdirilir.

Azərbaycandakı təhlükəsizlikdən danışan Səməd Seyidov deyib: "Strasburqun mərkəzində bir sinaqoq var. Ancaq bu sinaqoqun qapısı həmişə bağlı olur. Məsələ onda deyil ki, oraya kimsə ibadətə getmir. Sinaqoqun qapısının bağlı olması təhlükəsizliklə bağlıdır. Çünki Avropada antisemitizm mövcuddur. Amma Avropadan fərqli olaraq, Bakının mərkəzində sinaqoq var və oranın qapısı daim açıqdır. Azərbaycan əhalisinin 95 faizi müsəlman olsa da, ölkəmizdə kilsələr, sinaqoqlar fəaliyyət göstərir. Hazırda Bakıda erməni kilsəsi də mövcuddur. Amma Azərbaycanın işğal edilmiş ərazilərində bizim tarixi abidələrimizin heç biri qalmayıb. Sonra mövzu ilə bağlı məruzələr aparılıb. Konfransda Avropa Parlamentinin, Almaniya, Rusiya, Slovakiya, Fransa, Polşa, Bolqarıstan parlamentlərinin və xarici qeyri-hökumət təşkilatlarının üzvləri iştirak ediblər.

# Mərkəzi Seçki Komissiyası 2019-cu il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinə yekun vurub



Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 2019-cu il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının dəqiqləşdirilməsinə başlanılıb. Mərkəzi Seçki Komissiyasının (MSK) birbaşa rəhbərliyi altında mayın axırınadək ardıcıl və intensiv şəkildə gerçəkləşdirilən əhatəli proses nəticəsində siyahılar yüksək dəqiqliklə və keyfiyyətlə hazırlanıb.

Mərkəzi Seçki Komissiyası Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ilkin mərhələdə seçici siyahıları hər bir seçki məntəqəsi üzrə məntəqə seçki komissiyaları tərəfindən dəqiqləşdiriləcək fevralın 5-dək dairə seçki komissiyalarına verilib. Dairə seçki komissiyaları isə öz növbəsində seçki dairələri üzrə seçici siyahılarını dəqiqləşdirdikdən sonra əlaqədar qurumlardan daxil olan məlumatlarla bir daha təhlil edərək siyahıları aprelin 5-dək MSK-ya təqdim ediblər. Bundan sonra isə MSK seçicilərin daxil olduğu məlumat bazasını toplayıb, orada olan mümkün təkrar və qeyri-dəqiqlikləri seçicilərin məlumatlarının keyfiyyət və say təhlili üçün xüsusi proqram təminatı vasitəsi ilə bir daha dürüstləşdirərək prosesə yekun vurub.

Seçici siyahılarının dəqiqləşdirilməsi Daxili İşlər Nazirliyi və Ədliyyə Nazirliyinin müvafiq orqanları, o cümlədən yerli icra strukturları və bələdiyyə qurumları ilə sıx əməkdaşlıq şəraitində aparılıb, bu irimiqyaslı işə aşağı seçki komissiyalarının otuz mindən artıq üzvü cəlb olunub. Həyata keçirilən müxtəlif layihələr, habelə MSK-nın qaynar xətləri və internet səhifəsindəki onlayn xidmət dəqiqləşdirmə prosesi ərzində vətəndaşlarımızın ixtiyarında olaraq, görülən işlərin effektivliyinin daha da yüksəldilməsinə mühüm töhfə verib.

Əvvəlki illərdə olduğu kimi, cari il də siyahıların dəqiqləşdirilməsi zamanı informasiya-kommunikasiya texnologiyalarının müasir yeniliklərindən və texniki imkanları daha da təkmilləşdirilən xüsusi proqram təminatlarından geniş istifadə edilməsi prosesin səmərəli həyata keçirilməsində və seçici siyahılarının yüksək standartlara uyğun tərtib və çap olunmasında əhəmiyyətli rol oynayıb.

MSK üzvləri və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə mayın 29-da vahid seçici siyahılarının 2019-cu il üzrə yenidən tərtib edilən variantı ilə tanışlıq olub. Komissiyanın İnformasiya mərkəzinin zalında əyani şəkildə keçirilən təqdimat mərasimində diqqətə çatdırılıb ki, seçici siyahılarının yenidən tərtib edilməsi, yoxlanılması və dəqiqləşdirilməsi prosesi fasiləsiz onlayn rejimdə işləyən Dövlət Avtomatlaşdırılmış İnformasiya Sistemi vasitəsilə həyata keçirilib. Sözügedən sistemin yaratdığı yüksək texnoloji və interaktiv məlumat mübadiləsi imkanı siyahıların dəqiqləşdirilməsi və ümumiləşdirilməsi prosesini daha da sürətləndirərək, seçicilər barədə məlumatların toplanması, onların orfoqrafik və qrammatik testdən keçirilməsi, təkrar ehtimalına qarşı oxşar seçici məlumatlarının hərtərəfli təhlil edilməsi, eləcə də seçici siyahılarının keyfiyyətlə hazırlanması və çap edilməsini təmin edib.

Komissiya üzvləri seçici siyahılarının çapı və saxlanması şəraiti ilə tanış olduqdan sonra MSK-nın iclası keçirilib. Məzahir Pənahovun sədrlik etdiyi iclasda 2019-cu il üzrə seçicilərin daimi siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinin yekunları müzakirə olunub. Komissiya sədri M.Pənahov ilin əvvəlindən mayın sonunadək həyata keçirilən irimiqyaslı və əhatəli proses barədə geniş məlumat verib və bütün dəqiqləşdirmə prosesinə yaxından köməklik göstərən Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi və digər aidiyyatı qurumlara öz təşəkkürünü bildirib.

İclasda seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı fəaliyyətin yekunları müzakirə edilib və MSK üzvləri ən son texnoloji nailiyyətlərdən də istifadə olunmaqla ilbəil həyata keçirilən dəqiqləşdirmə prosesindəki təkmilləşdirmələri və inkişaf dinamikasını xüsusi vurğulayıblar. Sonra Komissiya 2019-cu il üzrə daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsi prosesinin başa çatmış hesab edərək, respublika üzrə seçicilərin daimi siyahısının rəsmi internet səhifəsində yerləşdirilməklə ictimailəşdirilməsinə qərar verib.

Qeyd edək ki, dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 5212902 seçici daxil edilib ki, onların da 49,17 faizi kişi, 50,83 faizi isə qadınlardır. İclasda, həmçinin MSK-nın 2019-cu il 9 aprel tarixli iclasının protokolu təsdiq olunub, bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

# Gənclər Ulu Öndər Heydər Əliyev ideologiyasına sadiqdirlər

## *YAP Füzuli rayon təşkilatının gənclər birliyinin konfransı keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Fizuli rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib. Konfransda YAP Füzuli rayon təşkilatının ötən müddət ərzində, görülən işlər və qarşıda duran məsələlər barədə çıxışlar edilib və məruzələr dinlənilib.***

Konfrans öz işinə Azərbaycan Respublikasının Dövlət Himni ilə başlayıb.

Konfransı giriş sözü ilə açan YAP Füzuli rayon təşkilatının sədri Almaz Həşimova qeyd edib ki, bu gün sıralarında 700 min nəfəri birləşdirən YAP-ın sıralarında gənclər böyük əksəriyyət təşkil edirlər: "Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin ideyalarını həyata keçirən və Prezident İlham Əliyevin Sədri olduğu YAP hər zaman fəaliyyətində gənclərə böyük önəm verib, imkanlar yaradıb. Bu amil gənclərə milli şüurun və vətənpərvərlik ruhunun formalaşmasına da əhəmiyyətli dərəcədə stimul verir".

Partiyanın rayon təşkilatı ilə bağlı da məlumat verən Almaz Həşimova qeyd edib ki, hazırda 6849 nəfər YAP üzvünün 1813 nəfərini gənclər təşkil edir. "Bu gənclər Azərbaycanımızın gələcəyidirlər və onların amalı, məqsədi ölkəmizin adının yüksəldilməsi üçün çalışmaq, əzmlə xidmət göstərməkdir" deyən YAP Füzuli rayon təşkilatının sədri partiya rəhbərliyi tərəfindən qarşıya qoyulan məqsədlər, eləcə də, gənclərin partiyadakı rolu, ölkə rəhbərliyinin Azərbaycan gəncliyinə göstərdiyi davamlı diqqət və qayğısı barədə də danışan rayon təşkilatının sədri konfransı açıq elan edib.

Sonra YAP Füzuli rayon təşkilatının gənclər birliyinin hesabat məruzəsi dinlənilib. Məruzə ətrafında çıxış edən gənclər birliyinin sədri Tural Nəbiyev bildirib ki, partiyanın Füzuli rayon təşkilatının gəncləri, ötən müddət ərzində, istər seçkilərdə, istərsə də digər əhəmiyyətli ictimai-siyasi tədbirlərdə uğurlu fəaliyyət göstərərək, öz davamlı töhfələrini veriblər. "Azərbaycan gəncliyi, xüsusilə, Yeni Azərbaycan Partiyasında təmsil olunan gənclərimiz ölkəmizin güclənməsi, qüdrətlənməsi üçün var gücləri ilə çalışır, təhsil və s. sahələrdə daim öndə olurlar" deyə qeyd edən məruzəçi gənclərin YAP sıralarına axınla üzv olduqlarını, bundan qürur hissi duyduqlarını qeyd edib: "Bu gün partiyamızın sıralarında təmsil olunan hər bir gənc bundan sonsuz qürur və fərəh hissi duyur. Gənclərimiz Ulu Öndər Heydər Əliyev ideologiyası və bu ideologiyanı uğurla davam etdirən partiyamızın Sədri, Prezident İlham Əliyevin ətrafında sıx birləşiblər".





Çıxış edən digər məruzəçilər - rayonun Heydər Əliyev Mərkəzinin fond müdiri Şəhanə Kərimova, YAP Füzuli rayon təşkilatının əməkdaşı İlgiz Məmmədova, Dövlət Aqrar İnkişaf Mərkəzinin baş məsləhətçisi Çinarə Abbaslı, Horadiz 2 saylı orta məktəbinin ingilis dili müəllimi Azər Kərimli ölkəmizdə yürüdülən uğurlu gənclər siyasətindən danışaraq, əldə edilən nailiyyətlərin hər birinin Azərbaycanın daha uğurlu gələcəyinə stimul verdiyini qeyd edərək, ölkə gəncliyinin partiyanın Sədri, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşdiyini bildiriblər.

Məruzələrdən sonra təşkilati məsələlərə baxılıb, YAP Füzuli rayon təşkilatının gənclər birliyinin şura və idarə heyətinin üzvləri, həmçinin, sədri və sədr müavinləri, eləcə də, YAP Gənclər Birliyinin Respublika Konfransına nümayəndələr seçilib.

Konfransda çıxış edən "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev YAP Füzuli rayon təşkilatının rəhbərliyini və gəncər birliyini keçirilmiş konfrans münasibəti ilə təbrik edərək, bildirib ki, Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev daim Azərbaycan gəncliyinin inkişafı istiqamətində davamlı işlər aparır. "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin kökündə dayanan amil 90-cı illərin əvvəllərində vətəndaş müharibəsindən çıxan Azərbaycan gəncliyinin vətəndaş cəmiyyətinin formalaşması prosesinə cəlb olunması və həmin dövrdən etibarən həyata keçirilən uğurlu gənclər siyasətinin nəticəsidir" deyə qeyd edən Bəhruz Quliyev Azərbaycanda gənclərin inkişafı istiqamətində atılan addımların başlıca məqsədinin gənclərin enerjisindən dövlət idarəçiliyində, ictimai institutlarda, qanunvericilik orqanlarında və mühüm platformalarda daha səmərəli istifadə etmək olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu gün gənclərimiz respublikanın müxtəlif beynəlxalq tribunalarda, mühüm yarışlarda, elm auditoriyalarında təmsil edə bilirsə, o cümlədən, Azərbaycan gəncliyinin səsi müxtəlif nüfuzlu beynəlxalq təşkilatlardan gəlirsə, bu, Azərbaycan gəncinin tərəqqi göstəricisidir. O, əlavə edib ki, region gənclərinin sağlam ruhda inkişaf etməsi məqsədilə bölgələrimizdə idman mərkəzləri, Olimpiya kompleksləri, gənclər evləri və müxtəlif dərnəklər açılır, onların asudə vaxtlarının səmərəli şəkildə keçməsi üçün lazımi infrastruktur yaradılır, habelə, Azərbaycan gənclərinin xaricdə təhsilindən tutmuş, fərdi inkişaflarına qədər, bir sıra dövlət qurumları və fondlar tərəfindən dəstək göstərilir: "Əlbəttə ki, bu uğurlar həm dövlətin apardığı siyasət, həm də ölkəmizin siyasi Liderinin şəxsi iradəsi nəticəsində qazanılıb. Bu gün hər bir vətənsevər Azərbaycan gənci, məhz Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşməklə, ölkəmizin inkişafına öz töhfəsini verməkdədir".

Füzuli rayon icra hakimiyyətinin başçısı Alı Alıyev isə öz çıxışında Prezident İlham Əliyevin apardığı məqsədyönlü və uğurlu daxili-xarici siyasətinə toxunaraq, bildirib ki, bu gün Azərbaycanın inkişaf və tərəqqisi Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi ideoloji prinsiplərlə davam etdirilir: "Hər bir inkişaf, hər bir nailiyyət ölkəmizin adını zirvələrə yüksəldir. O cümlədən, Cənab İlham Əliyevin regionlara səfərləri və qəbul edilən Dövlət Proqramları digər rayonlarla yanaşı, sərhədyanı Füzuli rayonunun da inkişafına dinamik təsirlərini göstərir, rayonumuzda müxtəlif sahələri əhatə edən müəssisələr, iş yerləri açılır və insanlarımız bütün bunlardan töhfələr əldə edirlər. Əlbəttə ki, hər bir füzulili bundan sonra da, bütövlükdə, Azərbaycanın inkişaf və tərəqqisi yönündə yorulmadan çalışacaq, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşəcək. Mən, hər birinizə uğurlar və nailiyyətlər arzulayıram".

***Rövşən NURƏDDİNOĞLU***

## Ukraynalı turist: Azərbaycan ənənəsinə sadiq qalaraq bu dəfə də təhlükəsizlik tədbirlərini çox yüksək səviyyədə təşkil edib



Mən həyat yoldaşımla UEFA Avropa Liqasının final oyununu izləmək üçün Ukraynadan gəlmişəm. Ölkənizdə ilk dəfədir oluruq. Bakının gözəlliyi, xüsusilə Dənizkənarı Milli Park bizi heyran etdi. Burada qədim və müasir arxitektura birbiri ilə vəhdət təşkil edir. İnsanlar qonaqpərvər, səmimi və gülərüzdür. Azərbaycanda bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərin, yarışların yüksək səviyyədə keçirildiyindən məlumatlıyıq. Ölkəniz ənənəsinə sadiq qalaraq bu dəfə də təhlükəsizlik tədbirlərini çox yüksək səviyyədə təşkil edib. Bu sözləri AZƏRTAC-a müsahibəsində ukraynalı turist Svetlana Lepntyeva deyib. O, həmçinin qeyd edib: "Bu, sadəcə futbol bayramıdır. Biz hər iki komandanı dəstəkləyirik. Güclü qalib gəlsin". Ukraynalı qonaq Azərbaycan mətbəxinin ləziz təamlarının dadına da baxdıqlarını və çox bəyəndiklərini xüsusi vurğulayıb.

# YAP Biləsuvar rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib

YAP Biləsuvar rayon təşkilatı gənclər birliyinin V konfransı keçirilib. Konfrans iştirakçıları, ilk olaraq, Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, xatirəsini ehtiramla yad ediblər.

Konfransda YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev çıxış edərək, bildirib ki, bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir: "Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən və onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır."

K.Mirzəyev, onu da vurğulayıb ki, Azərbaycan gəncliyinin seçiminin Yeni Azərbaycan Partiyası olmasının da arxasında, məhz dövlətçiliyə bağlılıq, milli mənafenin qorunması kimi müqəddəs amallar dayanır: "Çünki Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyev ideyalarının daşıyıcısı, müasir Azərbaycan gəncliyinin güvənc yeridir. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-gənclər siyasəti





Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən layiqincə yerinə yetirilir."

Konfransda YAP Biləsuvar rayon təşkilatı gənclər birliyinin sədri Aqşin Bağırov hesabat məruzəsi ilə çıxış edib.

"Məruzə ətrafında rayon təşkilatı şəhər 1 saylı ərazi ilk partiya təşkilatının üzvü Əlifli Əliheydər, gənc partiya üzvü Hüseynzadə Sahil, Aranlı kənd ümumi orta məktəbin gənc müəllimi, partiya üzvü Pərvin Əliyeva çıxış edərək gənclər birliyinin hesabat dövründəki fəaliyyətini qənaətbəxş hesab edərək, bütünlükdə. gənclərə göstərilən qayğı və diqqətə görə. ölkə Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Konfransda YAP Siyasi Şurasının üzvü, millət vəkilləri Mirkazım Kazımov, Rüstəm Xəlilov, Biləsuvar rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev çıxış edərək, Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət-gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən bəhs ediblər. Sonra konfransda təşkilatı məsələlərə baxılıb. 15 nəfərdən ibarət YAP Biləsuvar rayon təşkilatı gənclər birliyinin şura üzvü və 7 nəfər idarə heyətinin üzvü seçilib. Aqşin Bağırov YAP Biləsuvar rayon təşkilatı gənclər birliyinin sədri, Hüseynli Elnur və Hüseynzadə Sahil sədrin müavinləri, eyni zamanda, 2 nəfər YAP Gənclər Birliyinin respublika konfransına nümayəndə seçilib.

Konfransda, həmçinin, partiyaya yeni qəbul olunmuş üzvlərə partiya vəsiqələri təqdim olunub.

Sonda konfrans iştirakçıları adından Azərbaycan Respublikasını Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevə müraciət qəbul olunub.

**R.KAMALQIZI**

# YAP Laçın rayon təşkilatı 28 May Respublika gününü qeyd edib



***Ağcabədi rayonu ərazisindəki Taxta Körpü qəsəbəsində, Yeni Azərbaycan Partiyası Laçın rayon təşkilatı icra hakimiyyəti ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 101-ci ildönümü ilə bağlı tədbir keçirib. YAP Laçın rayon təşkilatının inzibati binasının konfrans zalında keçirilən tədbirdə rayon icra hakimiyyəti başçısının müavini və YAP Laçın rayon təşkilatının sədri İlqar İlyasov çıxış edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, fəaliyyəti və qazandığı uğurlar barədə geniş məlumat verib: "101 il bundan əvvəl, 1918-ci il mayın 28-də Azərbaycan xalqının tarixində çox əlamətdar bir hadisə baş vermişdir.***

Məhz həmin gün İstiqlal Bəyamnaməsi qəbul olunmuş, Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti elan edilmişdir".

Tədbirdə digər çıxış edənlər bildiriblər ki, əsrlər boyu müstəqillik, milli azadlıq həsrətində olan xalqımızın ilk demokratik respublikası cəmi 23 ay yaşamasına baxmayaraq, onun fəaliyyət dövrü milli dövlətçilik tariximizin ən yaddaqalan mərhələlərindən biri olmuşdur. Çıxışlarda o da vurğulanıb ki, 1991-ci ildə yenidən öz dövlət müstəqilliyinə qovuşan Azərbaycanın daha da inkişaf edərək, dünya dövlətləri arasında öz layiqli yerini tutmuşdu. Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətləri danılmazdır. Daha sonra Ulu Öndərin siyasi varisi, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar əldə olundu. Cümhuriyyətin tarixi təcrübəsi göstərir ki, dövlət müstəqilliyini və suverenliyi əldə etmək kifayət deyil, həm də onu bütün vasitələrlə qorumaq və möhkəmləndirmək lazımdır.

**R.HÜSEYNOVA**



# "Mən yoqa edirəm"

## *Nizami rayonunda 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunan tədbir keçirilib*



Dünən "Qayğı-Sağlam Nəsil Naminə" İctimai Birliyi və YAP Nizami rayon təşkilatı gənclər birliyinin təşkilatçılığı ilə Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Gününə münasibətilə "Mən yoqa edirəm" adlı tədbir keçirilib.

Tədbirdə çıxış edən YAP Nizami rayon təşkilatı gənclər birliyinin sədri Sevinc Abdullayeva ictimai birliyin daun sindromlu və serebral iflicli uşaqların bacarıq və iradələrinin nümayiş olunması üçün keçirdiyi tədbirlərdən, bunun onlarda pozitiv əhval-ruhiyyə yaratmaq və cəmiyyətə inteqrasiya baxımından əhəmiyyətindən danışıb.

YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva çıxış edərək, daim diqqət və qayğıya ehtiyacı olan uşaqların hüquqlarının qorunması, onların layiqli vətəndaş kimi formalaşdırılmasının başlıca sosial vəzifə olduğunu söyləyərək, bu sahədə ölkəmizdə həyata keçirilən tədbirlərdən bəhs edib. Sonra daun sindromlu uşaqların yoqa təqdimatı olub. Sonda yoqa təqdimatı iştirakçıları medallarla təltif ediliblər.

# Əli Kərimli və Cəmil Həsənli AXC qurucularının adından alver edirlər

*“Milli Şura” və Müsavat təmsilçiləri uğursuz aksiya keçirməklə bir daha özlərini rüsvay etdilər. “Milli Şura” və Müsavatın 28 May Respublika Günü ilə bağlı Məhəmməd Əmin Rəsulzadənin abidəsi önündə keçirdiyi aksiya çox sönük və uğursuz şəkildə başa çatdı. Bu isə, bir daha dağıdıcı xislətli müxalifətin cəmiyyət tərəfindən rədd edildiyini göstərir. Söhbət etdiyimiz müsahiblərimiz, Müsavat və “Milli Şura” rəhbərliyinin iflasa uğradıqlarını və yaxın vaxtlarda tarixin arxivinə atılacaqlarını bildirdilər.*



## Millət vəkili Tahir Rzayev: “Sönük və zəif aksiya “Milli Şura”nın iflasıdır”

- Azərbaycanda sağlam müxalifət yoxdur. Bunlar, neçə ildir ki, yerlərində sayırlar. Hərdən də, sosial şəbəkələrdə, xarici sifarişlərə əsaslanmaqla, dövlət və dövlətçilik əleyhinə şər və böhtan kampaniyası aparırlar. Müsavat və “Milli Şura” xarici anti-Azərbaycan dairələrinin tapşırığını yerinə yetirir. Sözsüz ki, qarşılığında maliyyə vəsaitləri alırlar və onlara da qulluq edirlər. Müxalifətdə olan, ancaq sağlam siyasət yürüdən digər siyasi qurumlar Müsavat və AXCP-nin xarici pozucu qüvvələrlə iş birliyində olduqlarını görür və bu baxımdan, onların qanunsuz aksiyalarına qoşulmurlar. Bu partiyalar iqtidara müxalifətdirlər və yeri gələndə, öz sözlərini deyirlər. Düzgün olaraq, bu partiyalar Müsavat və “Milli Şura”nın mart və aprel aylarında keçirdikləri aksiyalara qoşulmadılar. Niyə qoşulmadılar? Çünki bu mitinqlər qanunsuz keçirilib. Mitinq təşkilatçıları burada lazım olmayan şüarlar səsləndirib, dövlətin, dövlət rəhbərlərinin, eləcə də, dövləti təmsil edən vəzifəli şəxslərin ünvanına şantaj xarakterli böhtanlar səsləndiriblər ki, bu da, qəbulolunmazdır. Çünki insanın şəxsiyyəti, hüquqları var və bunu pozmaq olmaz. Eləcə də, dövlətin ünvanına söylənilən bu fikirlər, əlbəttə ki, qəbulolunmazdır. Ona görə də, konstruktiv siyasət aparan müxalif partiya sədrləri qanunu dərk edir, müəyyən qaydada bu proseslərdə iştirak etmirlər. Ənənəvi amplualarında çıxış edən “Milli Şura” və Müsavat rəhbərliyi M.Ə.Rəsulzadənin aksiya keçirməyə cəhd etdi. Ora Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli və Fuad Qəhramanlı bir neçə adamla yığışmışdırlar. Aksiyada özlərini lider sayan insanlar iştirak etmirdilər. Sözsüz ki, bu müxalifətin özünün bir iflasıdır. Çünki əgər “birləşmiş müxalifət” deyirlərsə, burada kütləvilik olmalı idi, amma olmadı, cəmi 3-5 nəfər iştirak etdi. Yenə də, eyni sözlər, əvvəllər səslənən şüarlar, dövlətin əleyhinə müəyyən xoşagəlməyən ifadələr səsləndirildi. Onsuz da, biz Məhəmməd Əmin Rəsulzadəyə Xalq Cümhuriyyətinin liderlərindən biri kimi həmişə rəğbətimizi bildirmişik. Eləcə də, AXC-nin üzvləri olan və hökumətdə təmsil olunmuş digər şəxslərə abidələrin qoyulması, adlarının əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi haqqında tədbirlər görülüb. İndi bunlar Məhəmməd Əmin Rəsulzadəni bir bayraq ediblər, güya Məhəmməd Əmin Rəsulzadəyə qarşı qısqanclıq var. Yəni heç bir reallığı əks etdirməyən cəfəng fikirlər söyləyirlər. Amma birmənalı mövqe, ondan ibarətdir ki, AXC qurucularının xatirəsi bizim üçün əzizdir. Hər bir insana göstərdiyi xidmətinin dərəcəsinə görə qiymət verilməlidir və bu qiymət də verilir. Məhəmməd Əmin Rəsulzadə və digər AXC qurucuları ilə alver etmək olmaz. Ancaq müxalifət bu adamlarla siyasi alver edir. Mayın 28-də “Milli Şura” M.Ə.Rəsulzadənin abidəsi önündə uğursuz aksiya keçirməklə, bir daha özünü rüsvay etdi. Onların aksiyalarında iştirak edənlərin əksəriyyəti azyaşlılar idi. Bu da, onların tükəndiklərini və ümidlərini balaca uşaqlara bağladıqlarını göstərir. Belə müxalifət məhvə məhkumdur, yəqin ki, bu proqnoz yaxın vaxtlarda reallığa çevriləcək. Məhəmməd Əmin Rəsulzadə ilə alver etmək olmaz, siyasi xadimlərlə belə alver etmək olmaz. Demək olar ki, müxalifət bu adamlar vasitəsilə alver edir.



## Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: “Milli Şura” ucuz şou yaratmaqla məşğuldur”

- Ümumiyyətlə, Rəsulzadə nə “Milli Şura”ya məxsus deyil, nə də onlar ayrılıqda davamçıları deyillər. Azərbaycan Xalq Cümhuriyyətinin varisi bugünkü Azərbaycanımızdır, xalqdır və onun seçdiyi iqtidardır. Bu gün Azərbaycan dövləti Cümhuriyyətə və onun qurucularına dərin rəğbətlə yanaşır və dövlət səviyyəsində və onlara aid xüsusi günlər yüksək səviyyədə qeyd edilir. Bundan əlavə, Prezident İlham Əliyev qeyd etdiyi kimi, “Cümhuriyyət qurucularının etmək istədiyini və arzularını biz həyata keçiririk”. Bugünkü yüksək inkişaf və güclü Azərbaycan buna misaldır. Xalq da bütün bunları bilir və Prezidentinin siyasətini qəbul edir və dəstəkləyir. “Milli Şura” isə ucuz şou yaratmaqla məşğuldur. Həm də, çalışırlar ki, daha çox sosial şəbəkələrdə ucuz reklamlar qursunlar. Bütün bunlar, onlara ancaq utanc gətirir. 28 may günü Rəsulzadənin heykəlinin ziyarəti zamanı, bu bir daha sübut olundu ki, bir özləridir, bir də, papkaları. Xalq isə, dövlət səviyyəsində təşkil edilmiş müxtəlif tədbirlərdə idi. Xalq Respublika Gününü əyləncə və gəzinti ilə qeyd edirdi. Sosial şəbəkələrdə yerləşdirilən fotolara baxsaq, bunu aydın görərik.

***GÜLYANƏ***

# Azərbaycan sərhədçilərindən ölkəmizə gələn azarkeşlərə sürpriz

UEFA Avropa Liqasının Bakıda keçiriləcək final oyununu izləmək üçün Azərbaycanın paytaxtına azarkeşlərin gəlişi davam edir. AZƏRTAC xəbər verir ki,





Dövlət Sərhəd Xidmətinin əməkdaşları ölkəmizə gələn turistləri xüsusi hədiyyələrlə qarşılayırlar. Belə ki, xanım azarkeşlərə gül dəstələri, kişilərə isə üzərində “Tofiq Bəhramov - 1966” sözləri yazılmış breloklar hədiyyə olunur. Gözlənilməz sürpriz azarkeşlər tərəfindən maraqla qarşılanır.

# Andrey Kançelskis: “Mxitaryan belə qorxdusa, qoy özünə pampers alsın”

“Mən bunu başa düşmürəm. Sən kimdən qorxursan? Hansı siyasi münasibətlər? Sən futbol oynayırsan - get və oyna. Bu, nə cəfəngdir”. SİA rusfootball.info-ya istinadla xəbər verir ki, bunu “Mançester Yunayted” və



“Everton”un keçmiş rusiyalı futbolçusu Andrey Kançelskis “Arsenal”ın erməni oyunçusu Henrix Mxitaryanın Bakıya Avropa Liqasının final oyununa getməkdən imtina etməsinə münasibət bildirərkən deyib.

O, Mxitaryanın qərarını gülməli adlandırıb: “Elə bil klounadadır! Futbol futbol, siyasət siyasətdir. Get və oyna, qorxmadığını göstər. Ümumiyyətlə orada sənə nə edəcəklər? Azərbaycan və Ermənistan arasında münasibətlərin necə olmasından asılı olmayaraq, sən gedib oynamalısan. Yekunda heç kəs sənə barmağı ilə toxunmayacaq! Ola bilsin fitə basardılar, qışqırardılar... İngiltərənin qapısına əliylə qol vurduğuna görə Maradonanı da fitə basmışdılar. Maradona sağdır axı! Əgər Mxitaryan belə qorxdusa, qoy özünə pampers alsın. Mən klub rəhbərliyinin yerində olsaydım, Mxitaryanı peşəkar öhdəliklərini yerinə yetirmədiyinə görə cərimələyərdim. Avropa Liqasının finalında uduzsalar, günahkar Mxitaryan olacaq. Çünki getməyərək komandasına kömək etmədi”.

# “Nar” tələbələr üçün mobil şəbəkə gücünü nümayiş etdirdi

“Nar” ölkənin yerli rabitə bazarında gənc mütəxəssislərin yetişməsi məqsədilə, Azərbaycan Texniki Universitetinin (AzTU) magistr pilləsində təhsil alan tələbələr üçün mobil rabitə şəbəkəsilə əyani tanışlıq təlimi təşkil edib. “Nar”-ın texniki heyətinin rəhbərliyi ilə tələbələr, mobil şəbəkə haqqında təlim keçdikdən sonra, şəhərin müxtəlif ərazilərində yerləşən baza və ötürücü stansiyaları, həmçinin şəbəkə nəzarət otağını ziyarət ediblər. Mühazirələr zamanı tələbələr bütün ölkə üzrə mobil şəbəkənin davamlılığına nəzarət edilməsi, texnoloji yeniliklərin tətbiqi və müştərilərin artan tələbələrini qarşılanması barədə ətraflı öyrəniblər.



“Nar”-ın baza və ötürücü stansiyalarını yerində öyrənən tələbələrə, şəbəkə cihazları haqqında məlumat verilib, qurğuların iş prinsipi və təhlükəsizliyə nəzarət mexanizmi öyrədilib.

Tələbələr “Nar”-ın ölkə boyunca fasiləsiz işləyən 1800-dən çox 4G, 2670-dən çox 3G və ümumilikdə 7500-dən çox mobil rabitə stansiyasının işinə nəzarət edən şəbəkə monitorinqi otağını ziyarət edib. 24/7 rejimdə aparılan monitorinq sayəsində “Nar” abunəçiləri yüksək keyfiyyətli zəng və internet xidmətlərindən kəsintisiz istifadə edir.

“Nar”-la bir iş günü keçirən tələbələr yerli rabitə şirkətində əməkdaşlara yaradılan şəraitlə tanış olublar, onları gözləyən peşə imkanlarına və rabitə işinin incəliklərinə bələd olublar. Qeyri-rəsmi görüş zamanı tələbələr onları maraqlandıran sualları birbaşa “Nar” şəbəkənin idarəedicilərindən soruşmaq imkanı əldə ediblər.

Tələbələrin mobil rabitə şəbəkəsi ilə əyani tanışlıq təlimi, “Nar” və AzTU arasında imzalanmış tərəfdaşlıq razılaşması çərçivəsində baş tutmuş növbəti layihədir. Buna qədər “Nar”-ın rabitə mütəxəssisləri Texniki Universitetdə test rabitə mərkəzi və mobil rabitə təlimləri təşkil ediblər. Universitetlə razılaşmanın əsas niyyəti isə rabitə sahəsində gələcəyin yerli peşəkarlarını yetişdirmək və azərbaycanlı tələbələrin məzun olduqdan sonra rabitə bazarında əcnəbi həmkarlarından daha üstün biliyə sahib olmasını təmin etməkdir.

# 28 May Respublika Günü həm də radikal müxalifətin dəfn günüdür

*Bu ənənənin təməli isə Novxanıdan qoyulub*



Məlum olduğu kimi, Müsavat partiyası və "Milli Şura"-AXCP cütlüyü ayrı-ayrılıqda Məhəmməd Əmin Rəsulzadənin Novxanı kəndindəki heykəli önündə aksiya keçiriblər.

Qeyd edək ki, hər iki aksiya ilə bağlı bir həftə əvvəldən sosial şəbəkələrdə anonslar səsləndirilib. Abşeron Rayon Polis İdarəsindən mətbuata verilən məlumata görə, Müsavat partiyasının aksiyasında təşkilatın rəhbərliyi və üzvlərindən ibarət 220 nəfər iştirak edib. "Milli Şura"nın keçirdiyi aksiyada isə, "Milli Şura" koordinasiya şurasının üzvləri və AXCP-nin üzvü olan 330 nəfər iştirak edib.

Beləliklə, artıq əminliklə, belə bir nəticəyə gəlmək olar ki, 28 May Respublika Günündə, hər zaman olduğu kimi, növbəti dəfə ənənəvi müxalifət düşərgəsinin bir yerdə olmadığı sübut edilir. Belə bir qənaətə gəlmək mümkündür ki, sözügedən tarix, həmçinin, düşərgənin parçalanmasını sübut edən gün kimi yadda qalıb. Xüsusilə, düşmən münasibətində olan müxalifət partiyaları və qurumları olan AXCP - "Milli Şura" cütlüyü və Müsavat və həmin partiyaların diktəsi ilə idarə olunan digər qurumlar Respublika Gününü bir yerdə, barış və əməkdaşlıq şəraitində deyil, ayrı-ayrılıqda keçirməyi üstün tuturlar. Həmçinin, daha əvvəllər də müşahidə etdiyimiz kimi, hansı partiyanın, ilk olaraq, Novxanıda tədbir keçirməsi üstündə kəskin münaqişələr yaşanır.

### Ənənəvi əklil qoymaq davası

O da, sirr deyil ki, bu təşkilatlar Novxanıda ADR-in qurucusu Məhəmməd Əmin Rəsulzadənin abidəsi önündə aksiyalarını qeyd etmək üstündə, ənənəvi savaşa qalxırlar. Kim birinci aksiya keçirəcək, kim birinci əklil qoyacaq və s. Daha dəqiq desək, hansı partiyanın, ilk olaraq, Novxanıda tədbir keçirməsi üstündə kəskin münaqişələr yaşanır. Düzdür, 2013-cü il prezident seçkiləri öncəsi "Milli Şura" adlı qondarma qurumda "əməkdaşlıq" edən AXCP-Müsavat yalnız həmin ildə aksiyalarını birgə keçirmişdilər ki, hazırda məlum səbəblər üzündən, "Milli Şura"dan çıxan Müsavat yenidən öz köhnə ənənəsinə sadiq qalaraq, yeni ayrılıqda Rəsulzadənin abidəsini ziyarət etməyə başlayıb. Görünən isə, budur ki, uzağı, bir il bir yerdə olan müxalifət partiyaları bundan o yana birgə yol qət etmək gücündə və istəyində olmadıqlarını, sözügedən qarşılıqlı qisasçı və düşmənçilik addımları ilə sübuta yetirirlər. Xüsusilə, bir-birlərini ittiham edərkən, mətbuata bol açıqlamalar verən müxalifət funksionerləri hakimiyyətlə yanaşı, özlərinə qarşı da rdaikallıq nümayiş etdirirlər. Baxmayaraq ki, onlar düşərgədə təmsil olunan qarşı tərəflərə, müxtəlif məsələlərə dair fikir bildirdikləri zaman, "dostlarımız" deyə müraciət etsələr də, həmin kəlmənin, sadəcə, söz demək xətrinə deyildiyi aşkar görünür. Ortada heç bir dostluq münasibətləri yoxdur və əgər olsaydı, onlar, ən azından, Respublika Günündə bir araya gəlməyi bacararaq, dediklərini sübuta yetirmiş olardılar. Ancaq göründüyü kimi, bu, baş vermir. Əksinə, düşmənçilik mövqeyi və s. ön planda durur.

### Belələrinin hakimiyyət iddiası, yürüdülən siyasəti tənqid etmələri mənasızlıq, məntiqsizlik və ictimai rəydə onlara qarşı istehza münasibəti doğurur

Düşərgə, konkret şəkildə, parçalanmış vəziyyətdə olduğu kimi, həm də düşmənçilik səviyyəsində münasibətlər çərçivəsindən çıxmağı bacarmayıb. Belə olan vəziyyətdə, ənənəvi müxlaifətin hakimiyyət iddiası, yürüdülən siyasəti tənqid etmələri mənasızlıq, məntiqsizlik və ictimai rəydə onlara qarşı istehza münasibəti doğurur.

Göründüyü kimi, ortada açıq-aşkar, qarşılıqlı barışmazlıq mövqeyi dayanıb. Fakt isə, yuxarıda da qeyd edildiyi kimi, 28 May Respublika Günü onların bir-birlərinə qarşı sərgilədikləri düşmənçilik münasibətləridir.

Biz isə, bundan sonra da tərəflərin yeni ittihamlarının, qarşıdurmalarının və savaşlarının şahidləri olacağıq. Çünki bu adət-ənənə müxalifətin qanına-canına hopub. Belə müxalifət üçün isə, heç bir sosial sifariş ola bilməz. Yaxşı olardı ki, onlar 28 May Respublika Gününü özlərinin dəfn günü kimi qeyd etsinlər. Bu, ictimai rəy üçün daha məntiqəuyğun olardı...

**Rövşən RƏSULOV**

# Sosial şəbəkələrin "kliyenti"

*Sərdar Cəlaloğlu: "Sosial şəbəkələrdə ən pis küçə söyüşləri söyməklə Əli Kərimli özünün ləyaqətsizliyini və əxlaqsızlığını nümayiş etdirir"*



***Bir siyasətçinin ki, tərcümeyi-halında bu qədər qara ləkələr olsun, bütün fəaliyyəti boyu satılmaqdan üzütüpürcəkli olan AXCP sədri Əli Kərimlinin küçə itləri kimi mitinq keçirmək iddiasına düşməsini ancaq həyasızlıq adlandırmaq olar. Bunu satqınlar "kadrosu" olan "Milli Şura"nın bu günə kimi keçirdiyi rüsvayçı mitinq şouları bir daha sübut edir. Bu gün yenidən Ə.Kərimlinin özünü "birləşmiş müxalifətin lideri" kimi təqdim etməsi, demək olar ki, müxalifət düşərgəsinin bütün üzvlərinin əsəblərini tarıma çəkib. Ən maraqlı məqam isə budur ki, cinayətlər içində çabalayan Ə.Kərimli hansı üzlə mitinq iddiasına düşüb?***

### Sərdar Cəlaloğlu: "Primadonna" Əli Kərimli o Ə.Kərimlidir ki, siyasi karyerası boyunca təmsil olunduğu düşərgədə daim dağıdıcılıq fəaliyyəti ilə tanınıb"

ADP sədri Sərdar Cəlaloğlu deyib ki, AXCP sədri Ə.Kərimli cəbhəsi, özlərinin iştirak etdiyi, içində olduğu hər şeyin düzgün olduğunu, qalanların yanlışlığını iddia edir: "Bu, gülünc bir şeydir. Sən kimsən axı?! Sən heç özünü idarə edə bilmirsən, gəlib məni idarə edə bilərsən? Sən kimsən ki, qiymət verirsən?! Ə.Kərimli üzərinə belə bir missiya götürməyin nə məqsədlədir? O, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalara ad qoyur ki, Müsavat filandır, AMİP filandır, bunların hamısı satqındır. A bala, sənə bu hüququ kim verib? Sən doğulandan, satılıb-satansan. Daha dəqiq desək, satqın siyasətin "primadonnası"san! Sənin ipini çəkmək çətin deyil. Mitinq keçirməklə baş girləyirsən, ancaq bir yoxsan".

ADP sədri, eyni zamanda, AXCP fəallarının sosial şəbəkədəki davranışlarına da toxunaraq, deyib ki, ən pis küçə söyüşləri söyməklə, Ə.Kərimli özünün ləyaqətsizliyini və əxlaqsızlığını nümayiş etdirir. Onun haqqında çoxlu materiallar gedirdi, qəzetlərdə və internet saytlarında yazırdılar. Erməni qulbeçəsi olmaq Ə.Kərimlinin pozğun tərbiyəsini göstərir.

S.Cəlaloğlu Ə.Kərimlinin son 25 ildə müxalifət daxilindəki dağıdıcı məqamlarına da toxunaraq, bildirib ki, 1995-ci ilin payızında Azərbaycanda Milli Məclisə seçkilər keçirilərkən, mərhum Əbülfəz Elçibəy AXCP-yə Kələkidən tam nəzarət edə bilmirdi. Bundan istifadə edən Ə.Kərimlinin "Yurd"laşdırılmış nəzarəti "at oynadırdı". Sonra Ə.Kərimli müxalifət düşərgəsində birlik təşəbbüslərinə sarsıdıcı zərbələr vurdu. 2000-ci ilin parlament seçkilərində ortaya qoyduğu mövqe yəqin çoxlarının yaddaşından hələ də silinməyib. Yenə də Müsavatla AXCP-nin seçkiyə "vahid siyahı" ilə getmələri təşəbbüsü Ə.Kərimli tərəfindən "vuruldu". Seçkidən sonra isə, müxalifətin tutduğu vahid mövqeyə qarşı çıxmaqla, Ə.Kərimli növbəti missiyasını yerinə yetirmiş oldu. Bu gün Ə.Kərimli kimlərəsə, məsələn, Arif Hacılıya, İsgəndər Həmidova və digərlərinə boşuna qucaq açmır. Məşhur bir aforizmdə deyildiyi kimi, onları sevdiyi üçün qucaqlamır, sevmədiyi üçün qucaqlayır ki, bağrına basıb, elə möhkəm sıxsın ki, boğulsunlar... Bu gün siyasi meydandan tamamilə silinən və tarixin zibilliyinə atılan Ə.Kərimli kimi satqın və xəyanətkarın, o cümlədən, Müsavat partiyası və "Milli Şura"nın ayrı-ayrılıqda Məhəmməd Əmin Rəsulzadənin Novxanı kəndindəki heykəli önündə aksiya keçirmələri isə, hər şeyə qara yaxmaq kimi məkrli niyyətlərini nümayiş etdirməkdir. Ancaq Ə.Kərimli, A.Hacılı, İ.Qəmbər və bu kimi Vətənin halal çörəyinə kəm baxıb, özgənin yalı ilə bəslənənlər, bir həqiqəti bilməlidirlər ki, tarix onlar kimi satşınları heç vaxt bağışlamayacaq.

**Rəfiqə HÜSEYNOVA**

# Fənn olimpiadalarına hazırlaşmaq asanlaşacaq - Proqramlar əvvəlcədən portala yerləşdiriləcək

***Gələn ildən www.olimpiada.edu.az saytında hər bir fənn və hər bir yaş qrupu üzrə respublika fənn olimpiadalarının proqramları yerləşdiriləcək və şagirdlər ilin əvvəlindən artıq həmin proqramlar üzrə olimpiadalara hazırlaşa biləcəklər. Trend-in məlumatına görə, bunu Təhsil İnstitutunun İstedadlı uşaqlarla iş şöbəsinin müdiri Fuad Qarayev bildirib.***



Onun sözlərinə görə, bu il respublika fənn olimpiadalarının 274 qalibi olub ki, onların 127-si bölgə məktəblərinin payına düşüb. Onların arasında olimpiadada hətta qızıl, gümüş medal qazananlar da var. F.Qarayev əlavə edib ki, hazırda 300-ə yaxın şagird Olimpiada Hazırlıq Mərkəzlərində dərslərə cəlb edilib. Gələcəkdə bu mərkəzlərin sayının artırılması üçün işlər aparılır.

# Qadın hüquqlarının təmin olunmasına dair qanunlar

***Azərbaycan Prezidentinin 2018-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" (YADİDP) Minilliyin İnkişaf Məqsədləri ilə tam uyğunlaşdırılmışdır. Sözügedən sənəd, yeddi il ərzində, Azərbaycanın sosial-iqtisadi inkişafı üçün əsas doqquz strateji məqsədi müəyyənləşdirmişdir. Onların arasında gender bərabərliyinin təmin olunması da yer almışdır.***

Sevinc Abbasova yazır: "Gender bərabərliyini, məqsəd olaraq, təsdiq edən Dövlət Proqramı bu məqsədə uyğun aşağıdakı hədəfi təyin etmişdir: "2015-ci ilin sonunadək qərarların qəbul edilməsi prosesində qadınların iştirak səviyyəsinin yüksəldilməsini təmin etmək. Proqramda, həmçinin, gender bərabərliyinə aid məqsəd və hədəf üçün proqram tətbiqinin monitorinq göstəriciləri müəyyənləşdirilmişdir. Mərkəzi icra strukturlarının rəhbərləri, parlament üzvləri, bələdiyyə üzvləri arasında qadınların iştirak səviyyəsi və hakimlər arasında qadınların iştirak səviyyəsi, bəhs etdiyimiz dövrdə qadın hüququ, qadın təhsili, qadın sağlamlığı ilə bağlı məsələlər və ümumən qadının ictimai həyatda mövqeyi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) fəaliyyətinin əsas istiqamətlərindən biridir. Cəmiyyətdə mövcud vəziyyətin dəyərləndirilməsi, gender bərabərliyi mexanizminin inkişaf etdirilməsi istiqamətində atılan addımlar, o cümlədən, mövcud qanunvericiliyin, mütəmadi olaraq, gender ekspertizasına məruz qoyulması, qadınların iqtisadi təşəbbüskarlıqlarının artırılmasına, o cümlədən, qadın sahibkarlığının inkişafına yönəlmiş kursların təşkili, qadınlara qarşı zorakılıqla mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi-müdafiə vasitələrinin, sığınacaqların, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, reproduktiv sağlamlıq hüquqlarının təmini və təbliği işinə geniş yer verilməsi, qadınlar üçün daha yaxşı karyera modellərinin müəyyənləşdirilməsi haqqında mühazirələrin, habelə, insan alveri və erkən nikahlar mövzusunda maarifləndirici seminar və məşğələlərin təşkili, Penitensiar Xidmətin qadınlar üçün cəzaçəkmə müəssisəsinə mütəmadi baxışların keçirilməsi və s. bu fəaliyyətin məğzini təşkil edir. Müvəkkilin təşəbbüsü ilə BDU Hüquq fakültəsində gender bir fənn kimi tələbələr üçün tədris olunur".

Ötən illərdə gender siyasətinin mühüm istiqamətlərindən olan bərabər hüquqlar və bərabər imkanlar strategiyası hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsinin daha da təkmilləşməsi kontekstində keyfiyyətcə yeni məzmun kəsb etməkdədir. Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yuxarıda bəhs etdiyimiz 28 dekabr 2006-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş Milli Fəaliyyət Planı gender bərabərliyinin əməli təminatı sahəsində önəmli tədbirlər paketini də nəzərdə tuturdu. Əvvəla, insan hüquqlarının təmin olunması ilə əlaqədar planlaşdırılan tədbirlərin həyata keçirilməsinin tapşırıldığı səlahiyyətli qurumlar sırasında AQUPDK də göstərilirdi. İkincisi, planda spesifik qadınlar üçün tədbirlər də nəzərdə tutulmuşdu. Bura qadınlara qarşı zorakılıq, o cümlədən, məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılığın qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımının təmin olunması, bu sahədə geniş maarifləndirmə işinin təşkil edilməsi, "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyadan, habelə, "İnsan alverinin, xüsusən, qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokoldan irəliyə gələn öhdəliklərin tam həcmdə yerinə yetirilməsi və həmin sənədlərə riayət olunmasının təmin edilməsi, insan hüquqlarının müxtəlif kateqoriyaları üzrə əhalinin müxtəlif qrupları, o cümlədən, qadınlar hüquqi maarifləndirmə sahəsində müəllimlərin, məruzəçilərin, təlimatçıların hazırlanması və s. tədbirlər daxil idi.

S.Abbasovanın fikrincə, Milli Fəaliyyət Planının məntiqi davamı olan Milli Fəaliyyət Proqramında qadın hüquqlarının müdafiəsi ilə bağlı daha geniş tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Ölkəmizdə insan hüquqlarına dair strateji əhəmiyyətli bu sənəddə beynəlxalq əmək təşkilatlarının 2000-ci il "Analığın mühafizəsi haqqında" və 1981-ci il "Kişi və qadın işçiləri üçün bərabər imkanlar: ailə vəzifələri olan işçilər haqqında" Konvensiyalarından irəli gələn öhdəlikləri nəzərə alaraq, işləyən qadınların və ailə vəzifələri olan işçilərin əmək hüquqları ilə əlaqədar əmlak qanunvericiliyinin təkmilləşdirilməsi, qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması, qadınlar arasında sahibkarlığın inkişaf etdirilməsi, qadınlar tərəfindən yeni peşələrin əldə edilməsinə yönəlmiş kursların təşkili, məişət zorakılığına məruz qalmış qadınlar üçün reabilitasiya proqramlarının hazırlanması, qadınlara qarşı zorakılıq, o cümlədən, məişət zorakılığı ilə mübarizənin gücləndirilməsi, bu cür zorakılıq qurbanları üçün hüquqi müdafiə vasitələrinin, zəruri kompensasiyanın, reabilitasiyanın, tibbi və psixoloji yardımın təmin olunması, bölgələrdə zorakılıq və insan alveri qurbanları üçün böhran mərkəzlərinin yaradılması, YUNESKO-nun "Təhsil haqqı üçün" prinsipinin təbliği, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi məqsədilə əhalinin müxtəlif qrupları, o cümlədən, qadınlar üçün hüquqi maarifləndirmə sahəsində təlimatçıların hazırlanması, reproduktiv sağlamlıq və ailə planlaşdırılması üzrə tədbirlər keçirildi.

S.Abbasova yazır: "2014-cü ildə AQUPDK YAP ilə birgə regionlarda qadınların respublikanın ictimai-siyasi və sosial-mədəni həyatında fəallığının qadınların qərar qəbulu səviyyəsində təmsiiçiliyinin artırılması məqsədilə "Bələdiyyə və Qadın" adlı buklet çap edərək, əhali arasında paylamışdı. Bununla əlaqədar, respublikanın 10 şəhər və rayonu regional mərkəz seçilmişdi. Həmçinin, həmin il "Yerli idarəetmədə qadın liderliyi - II" layihəsi çərçivəsində Qax, Oğuz və Qəbələ rayonlarında təlim-seminarlar təşkil olunmuşdu.

Azərbaycan Respublikasının Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi "Gənc qadınların liderlik qabiliyyətinin artırılmasında dini icmaların rolu" layihəsi çərçivəsində 2013-cü ilin sentyabr-dekabr aylarında regionlarda - Gəncə və Sumqayıt şəhərində, Zaqatala rayonunda, Lənkəran şəhərində, Şamaxı və Quba rayonunda müvafiq təlimlər keçirilmişdir. Aktiv qadınlar şəbəkəsinin yaradılması ilə layihə yekunlaşdırılmışdır."

AQXJPDK Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti ilə birgə qadın hüquqları mövzusunda layihə həyata keçirir. Layihə çərçivəsində "Qadın hüquqları üzrə Bələdçi" kitabı hazırlanıb nəşr edilmişdir. Kitabda ailə münasibətlərində qadın hüquqları, məişət zorakılığı və s. mövzular öz əksini tapmışdır. Bu kitabın, qadınların hüquqi baxımdan, maarifləndirilməsində rolunu nəzərə alaraq, regionlarda yaşayan qadınlar arasında təbliği və yayılması məqsədilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin dəstəyi və "Təkamül və İnteqrasiya" İctimai Birliyinin əməkdaşlığı ilə 2013-cü ilin avqust ayında Qəbələ və İsmayıllı, oktyabr ayında Bərdə və Ağdam, noyabr ayında Zaqatala və Hacıqabul rayonunda "Qadın huquqları" mövzusunda iki günlük seminar keçirilmişdir.

Təbii ki, yuxarıda sadalananlar Milli Fəaliyyət Proqramı çərçivəsində həyata keçirilən tədbirlərin heç də hamısı deyil. Gətirilən faktlardan bəlli olduğu kimi, dövlətimizin istər 2006-2011-ci illərdə, istərsə də 2011-ci ildən, etibarən qüvvədə olan insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində proqramları özünün problemlərə kompleks və sistemli yanaşması ilə seçilir. Təsadüfi deyildir ki, sözügedən sənədlərdə müəyyənləşdirilmiş bu və ya digər vəzifənin həllinə müxtəlif nazirlik və dövlət qurumları cəlb edilmişdir. Qadınlarla bağlı problemlər, məsələn, bir tək AQUPDK və ya Ombudsman İnstitutunun deyil, həmçinin, Xarici İşlər, Daxili İşlər, Ədliyyə, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə Nazirlikləri, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və s. dövlət orqanlarının maraq və fəaliyyət dairəsinə daxildir. Məhz artan sistemlilik dövlətimizin hüquqi dövlət quruculuğu, onun kontekstində isə, həmçinin, gender sferasındakı siyasətinin müasir mərhələsinin səciyyəvi cəhətini təşkil edir. Ölkəmizin çoxalan iqtisadi imkanları, əvvəlki illərdə toplanılmış zəruri idarəçilik təcrübəsi və səriştəliliyi qarşıya qoyulan vəzifələri daha operativ, daha miqyaslı və daha əsaslı həll etməyə şərait yaradır.

S.Abbasova yazır: "Ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən biri əhalinin, o cümlədən də, qadınların reproduktiv sağlamlığının qorunmasına dair həyata keçirilən kompleks tədbirlərdir. 15 sentyabr 2006-cı ildə Nazirlər Kabinetinin 211 nömrəli qərarı ilə "Ana və uşaqların sağlamlığının qorunması üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdi. Bu proqram Minilliyin 4-cü (Uşaq ölümünün azaldılması) və 5-ci (Anaların sağlamlığının qorunması) inkişaf məqsədlərinə nail olunması məqsədini güdür və əhalinin reproduktiv sağlamlığının qorunmasının təşkilini və təhlükəsiz analığı təmin edir. Sözügedən sənəddə AQUPDK-nin Azərbaycan Respublikasının şəhər və rayonlarında ana və uşaq sağlamlığının qorunması xidmətinin fəaliyyəti üzrə monitorinqin keçirilməsi və nəticələrin təhlili reproduktiv sağlamlıq, ana və uşaqların mühafizəsi sahəsində qanunvericilik aktlarının ÜST-in tövsiyələrinə uyğunlaşdırılması məqsədilə təkliflərin hazırlanması, mamalıq patologiyasında yeni müalicə və diaqnostika üsullarının tətbiq olunması üçün beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə elmi-praktik konfrans və seminarın keçirilməsi, əhali arasında sanitar-maarifçilik işinin genişləndirilməsi, reproduktiv sağlamlıq və ailə planlaşdırılması mövzusunda radio və televiziyada xüsusi verilişlərin təşkili barədə təklifləri öz əksini tapmışdır. Bu proqramın reallaşmasına dövlət büdcəsindən 2007-2009-cu illərdə 15,2 milyon, 2010-cu ildə isə 2,9 milyon manat vəsait ayrılmışdır."

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 30 may





## "Çelsi"nin azarkeşi: Ən çox İçərişəhəri xatırlayacağam

Bakını videokadrlarda və şəkillərdə görüb çox bəyənmişdim. Şəhəri öz gözümlə görmək isə mənə xoş təəssürat bağışladı. Ən çox İçərişəhəri xatırlayacağam.

Bu sözləri AZƏRTAC-a müsahibəsində UEFA Avropa Liqasının final oyununu izləmək üçün Bakıya gələn "Çelsi" klubunun azarkeşi Hindistanlı Yaşevar Radj deyib. Azərbaycanın paytaxtında yaradılan şəraiti yüksək dəyərləndirən turist Bakıya yenə gələcəyini bildirib: "Bakının çoxlu gözəl, gəzməli yerləri var. Dənizkənarı Milli Park da əladı. Orada gəzmək, istirahət etmək çox yaxşıdır. İçərişəhər isə heyrətamizdir və yəqin ki, ən çox bu qədim şəhəri xatırlayacağam", - deyə o əlavə edib.



## Rusiyalı azarkeş: Futbol siyasiləşdirilməməlidir

İlk dəfə Bakıdayam. Çox gözəl şəhərdir. Yeri gəlmişkən, belə ciddi irimiqyaslı idman tədbirinə ilk dəfə tamaşa edəcəm. Təşkilatçılıq yüksək səviyyədədir. Azarkeşlərin təhlükəsizliyinin və mühafizəsinin əsaslı təşkil edilməsinə görə təşəkkür etmək istəyirəm. Burada polislər çox nəzakətlidir. Yolu tapmağımıza həmişə kömək edirlər.

Bu sözləri AZƏRTAC-a müsahibəsində UEFA Avropa Liqasının final matçına tamaşa etmək üçün Rusiyanın Həştərxan şəhərindən dostu ilə birlikdə Bakıya gəlmiş azarkeş Rafiq Osmanov söyləyib. O deyib: "Əslində, futbol siyasiləşdirilməməlidir. Mən çox şadam ki, Avropa Liqasının final matçının keçirilməsi üçün Bakı seçilib. Əgər final matçının Çində, yaxud Avstraliyada keçirilməsi qərara alınsaydı, buna yerli azarkeşlər sevinəcəkdilər. Axı dünyanın hər yerində "Çelsi" və "Arsenal"ın azarkeşləri var. Amma matçı Bakıda keçirmək qərara alındı. Bütün Qafqazın və Rusiyanın futbol fanatları buna görə təşəkkür edirlər. Azərbaycanla Həştərxan vilayəti arasında münasibətlər yüksək səviyyədədir. Azərbaycanda çoxlu dostlarım var. Ötən il mayın sonunda Həştərxanda Bakı Biznes Mərkəzinin açılışı olub. Bildiyimə görə, Bakıda Həştərxan İşgüzar Mərkəzi 2019-cu ilin payızında açılacaq".

## İsrailli Meça Harris: Bakı əsl dostluq şəhəridir

Əvvəllər Azərbaycanda heç vaxt olmamışam. Bakıda ən çox diqqətimi cəlb edən insanların səmimi və mehriban olmasıdır. Bakıya qədəm basan azarkeşlər və qonaqlar da ən əvvəl məhz bunu hiss edirlər. Bakı əsl dostluq şəhəridir. Burada müxtəlif millətlərdən çoxlu dostlar tapmışam və əminəm ki, bu münasibətlər uzun müddət davam edəcək.

Bu sözləri UEFA Avropa Liqasının final oyununu izləmək üçün İsraildən Bakıya gələn Meça Harris AZƏRTAC-a müsahibəsində deyib. O, Azərbaycan milli mətbəxinə valeh olduğunu bildirib: "Azərbaycan xörəklərinin bəzilərinin dadına baxmışam. Xörəklərin dadı hələ də damağımdadır. Onların hazırlanma qaydası ilə də maraqlanmışam. Burada, həmçinin dönər və şaurmanı da yaxşı hazırlayırlar".

## UEFA-nın yeni vitse-prezidenti Bakıda müəyyənləşib



İspaniya Kral Futbol Federasiyasının prezidenti Luis Rubailes UEFA-ya vitse-prezident təyin olunub. Bu barədə qərar UEFA-nın mayın 29-da Bakıda təşkil olunan İcraiyyə Komitəsinin iclasında qəbul olunub. İspaniyalı mütəxəssis bu postda adı korrupsiya qalmaqalında hallanan Almaniya Futbol Assosiasiyasının sabiq prezidenti Reinhard Qrindeli əvəzləyib. Fransa Futbol Federasiyasının prezidenti Noel Le Qrit FIFA Şurasında Avropa nümayəndəsi təyin olunub. Hər iki təyinat UEFA-nın 2020-ci ildə keçiriləcək konqresinədək nəzərdə tutulub.

## Rusiyalı turist: Bakı idman yarışlarının təşkili baxımından bütün beynəlxalq normalara tam uyğundur



Ötən il Rusiyada futbol üzrə dünya çempionatı keçirildi. Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası Şurası bu çempionatı turnirin keçirildiyi tarix ərzində ən yaxşısı hesab etdi. Mundialın gedişində biz çempionatın keçirildiyi Kazana, Nijni Novqoroda səyahət etdik. Sözsüz ki, Moskvada keçirilən yarımfinal matçını da izlədik. Hər şey gözəl təşkil olunmuşdu. Bizim burada gördüklərimiz belə hesab etməyə əsas verir ki, Bakı idman yarışlarının təşkili baxımından bütün beynəlxalq normalara tam uyğundur. Avropa Liqasının finalını izləmək üçün aldığımız biletlərə ictimai nəqliyyatda pulsuz gedişlər daxil edilib. Həmçinin hava limanından da bizi pulsuz gətirdilər. Prinsipcə bu, böyük bonusdur. Təhlükəsizlik sarıdan da hər şey əladır. Bu vaxtadək Yurgen Kloppun Avropa Liqasının final matçının Azərbaycan paytaxtında keçirilməsinin məqsədəuyğun olmaması barədə dediklərinin hamısı əsassızdır.

Bu barədə AZƏRTAC-a müsahibəsində Rusiyanın paytaxtından dostları ilə Bakıya Avropa Liqasının final matçını izləməyə gələn azarkeş Pavel Savenok bildirib. O deyib: "Biz Bakıya beşgünlük gəlmişik: iki gün oyundan əvvəl, daha iki gün matçdan sonra qalacağıq. Biz bu qonaqpərvər şəhərdə istirahət edəcəyik. Düzdür, məqsədyönlü şəkildə futbola baxmağa gəlmişik, lakin həm də sizin gözəl paytaxtınıza tamaşa etmək, dənizdə dincəlmək istəyirik. Heyif ki, indi kurort mövsümü deyil, dənizdə çimmək üçün sərindir. Biz çox istərdik ki, şəhərdən kənara gedək, yerli çimərliklərdə olaq. Sizin Dənizkənarı Bulvarınız çox xoşumuza gəlir. Bu, özünün Venesiyası olan böyük və gözəl sahilboyudur".

## Qadın voleybolçularımız İspaniya yığması ilə qarşılaşıb

Qadın voleybolçulardan ibarət Azərbaycan millisi Qızıl Avropa Liqasında növbəti oyununu keçirib. Belə ki, millimiz Bakıda İspaniya yığmasını qəbul edib. Almaniyalı baş hakim Evald Matiasın idarə etdiyi oyunda rəqib 3:0 (25:21, 26:24, 25:14) hesabı ilə qalib gəlib.



İtaliyalı baş məşqçi Covanni Kapraranın yetirmələri Belarus, Finlandiya və İspaniya komandaları ilə "C" qrupunda yer alıb. Qrupun digər oyununda Belarus komandası Finlandiyadan üstün olub - 3:0 . Yığmamız bundan əvvəlki görüşdə mayın 27-də Minskdə Belarus seçməsinə 3:2 hesabı ilə məğlub olmuşdu. Hazırda İspaniya 6 xalla qrupda liderdir. Belarusun 5, Azərbaycan voleybolçularının hesabında 1 xalı var. Sonuncu pillədə olan Finlandiyanın isə xalı yoxdur.

## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fiziki tərbiyə və ÇH müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Cəfərzadə Ramin Namizəd oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər Təhsil, Psixologiya Xidmət və Korreksiyaedici təlim fakültəsinin III kurs tələbəsi Hüseynova Könül Zakir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

**X X X**

**Hacıqabul rayonu Rəncbər kənd sakini Mənsimov Rahim Əlisahib oğluna mülkiyyətinə verilmiş torpağın jn-175 A, kod 91007018 olan şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**